**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA BİLİK İQTİSADİYYATININ FORMALAŞMASININ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5308.01-Ümumi iqtisadiyyat

Elm sahəsi: 53- İqtisad

İddiaçı: iqtisad üzrə fəlsəfə doktoru, dosent,
**Allahyar Niyaz oğlu Muradov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın

**AVTOREFERATI**

Bakı -2025

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Heydər Sərdar oğlu Həsənov**

iqtisad elmləri doktoru, professor
**Telman İman oğlu İmanov**

iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad elmləri doktoru, dosent
**Fikrət Vəli oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

**Dissertasiya Şurasının Sədri:** iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

__________________

**Dissertasiya Şurasının Elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

__________________

**Elmi Seminarın Sədri:** iqtisad elmləri doktoru, professor
**Elşad Yaqub oğlu Məmmədov**

__________________

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Biliyin istehsalı, yayılması, mənimsənilməsi və tətbiqi (bundan sonra - biliyin inkişafı) hər bir ölkənin sosial-iqtisadi, hərbi-siyasi, eləcə də texniki-texnoloji tərəqqisinin təməlini təşkil edir. Buna görə də biliyin inkişafı və onun iqtisadiyyata təkanverici təsirinin gücləndirilməsi dövlətlərin strateji hədəfləri sırasında yer alır. Xüsusilə, "4-cü sənaye inqilabı"nın (4Sİ) sürətləndiyi müasir dövrdə biliyin inkişafının sürətləndirilməsinin tənzimlənməsi xüsusi aktuallıq kəsb edir.

Biliyin inkişafının tənzimlənməsi və onun iqtisadi inkişafdakı rolunun artırılması (bilik iqtisadiyyatı) biznes mühiti, inam, institutlar, infrastruktur, mülkiyyət hüququ, rəqabətli bazar, dövlətin bütövlüyü, qanunların aliliyi və digər iqtisadi və qeyri-iqtisadi makro amillərin səviyyəsindən asılıdır. Eyni zamanda, ölkədə öntəşəbbüskarlar* (innovativ sahibkarlar) təbəqəsinin formalaşdırılması, biliyin inkişafında birbaşa iştirak edən təhsil, elm və informasiya sektorunun (TEİS) koordinasiyasının tənzimlənməsi səviyyəsi, onların makro amillərlə qarşılıqlı əlaqəsi, insan kapitalı, innovasiya-investisiya fəallığı və biliyin inkişafının tənzimlənməsi mexanizminin səmərəliliyi bilik iqtisadiyyatının formalaşmasında mühüm rol oynayır. Bilik iqtisadiyyatı (Bİ) – cəmiyyətin sosial-iqtisadi inkişafında biliyin əsas hərəkətverici güc olduğu iqtisadiyyatdır. Belə bir iqtisadiyyat qurmaq üçün bilik, innovasiya, sərmayə, insan kapitalı və effektiv institutlar tələb olunur.

Son illərdə Azərbaycanda da biliyin və innovasiyaların inkişafına xidmət edən bir sıra mühüm sənədlər qəbul edilmişdir. AR Prezidenti İ.H.Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə 10 istiqamət üzrə "*Milli İqtisadiyyat və İqtisadiyyatın əsas Sektorları üzrə Strateji Yol Xəritələri",* 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*", 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə *"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası*" və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən bir sıra dövlət proqramları qəbul edilmişdir. Bu sənədlərdə qarşıya qoyulan strateji hədəf orta və uzunmüddətli dövrdə Azərbaycanda rəqabətli iqtisadiyyata, keyfiyyətli insan kapitalına, innovativ inkişafa nail olunmasıdır. Adı çəkilən strategiyasının (2022-

2026-cı) 3.3 bəndində *“rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə”* müəyyən edilmişdir. Bu sənədlərdə və digər dövlət proqramlarında qarşıya qoyulan hədəflərə nail olunması və biliyin iqtisadi yüksəlişdə rolunun artırılması məqsədilə davamlı islahatlar aparılır. Xüsusilə, qanunvericiliyin təkmilləşdirilməsi, tənzimləyici qurumların yaradılması, infrastrukturun və biznes mühitinin yaxşılaşdırılması, innovativ ideyaların stimullaşdırılması, eləcə də startaplara dövlət dəstəyi istiqamətində tədbirlər görülür. Lakin həyata keçirilən tədbirlərin makro amillər və sahələr arasında sinerji effektini yarada bilmir. Bunu beynəlxalq müqayisəli reytinqlərdə mövqeyimizdən və statistik rəqəmlərdən də görmək olar. Belə ki, ölkəmiz BMT[1]-nin “Qlobal Bilik İndeksi”ndə (QBİ) 2020-ci ildə 138 ölkə arasında 64-cü, 2023-cü ildə isə 133 ölkə arasında 94-cü yerdə, ÜƏMT[2]-in “Qlobal İnnovasiya İndeksi”ndə (Qİİ) 2019-cu ildə 132 ölkə arasında 84-cü, 2023-cü ildə 89-cu yerdə, ÜİF[3]-in “Qlobal Rəqabət İndeksi”ndə (QRİ) 2015-ci ildə 140 ölkə arasında 40-cı, 2019-cu ildə 58-ci yerdə qərarlaşmışdır. Göründüyü kimi, adları çəkilən reytinq hesabatlarında mövqeyimizdə geriləmə olmuşdur.

DB-in statistikasına görə 2023-cü ildə intellektual əmək tələb edən sahələrin ÜDM-də payı qabaqcıl ölkələrdə 25-50% arasında, Azərbaycanda ≈10%, Belarusda ≈11,3%, Rusiyada 16%, Qazaxıstanda 13%, Gürcüstanda ≈13,6% olmuşdur. Bu müqayisələr göstərir ki, Azərbaycan Bİ-nin əsas indikatorları üzrə həm region, həm də dünya üzrə orta göstəricidən geri qalır. Azərbaycanı geriyə çəkən göstəricilərə: elm, təhsil, informasiyanın maliyyələşməsi, yaradıcı mühit, innovasiya-investisiya fəaliyyəti, insan kapitalının dəyəri, təşviqedici mexanizmlər, innovasiya fəallığı, biznes mühiti, inhisar, institutların effektivliyi, bazarın rəqabətliliyi və s. daxildir.

Azərbaycanda bilik və bacarıqların inkişafı üçün TEİS və bir sıra makro amillər üzrə səmərəli tənzimləmənin həyata keçirilməsini tələb olunur. Burada yaranan problemlər iqtisadi fəallığı zəiflədir, rəqabətli məhsul (xidmət) istehsalına mənfi təsir göstərir.

---

[1] Birləşmiş Millətlər Təşkilatı

[2] Beynəlxalq Əqli Mülkiyyət Təşkilatı

[3] Ümumdünya İqtisadi Forum

Bu günə qədər Bİ-nin formalaşması, inkişafı, tənzimlənməsi ilə bağlı çoxsaylı araşdırmalar aparılmışdır. Lakin bu araşdırmalarda biliyin inkişafına təsir göstərən makro amillərlə Bİ-nin formalaşması, TEİS-lə makro amillər arasında qarşılıqlı əlaqə, Bİ-nin, o cümlədən TEİS-in tənzimləməsinə liberal və dirijist yanaşmanın sahəvi xüsusiyyətləri kompleks şəkildə öyrənilməmişdir. Bu baxımdan, Bİ-nin formalaşmasının dövlət tənzimləməsi istiqamətində fundamental və tətbiqi araşdırmaların aparılması olduqca aktualdır.

Ümumən bu gün istifadə olunan biliklər uzun tarixi inkişaf yolu keçmişdir. Şübhəsiz ki, dünyagörüşün, idrakın, iqtisadi, siyasi, sosial davranışların dəyişməsində, rifahın yaxşılaşmasında ən qədim dövrdən bu günə qədər yazılan elmi-fəlsəfi əsərlərin, aparılan araşdırmaların, kəşflərin, ixtiraların böyük rolu olmuşdur. Bizim eradan əvvəl yaşamış Konfutsi, Fales, Anaksimandr, Anaksimen, Ksenofan, Pifaqor, Heraklit, Platon, Aristotel, bizim erada yaşamış Plutarx, M.Siseron, Əl-Fərabi, Ə.Yəsəvi, İbn Sina, Ə.Bəhmənyar, N.Tusi, B.Spinoza, F.Bekon, T.Kun, Q.V.F.Hegel, İ.Kant, R.Dekart, C.Lokk, P.Tanneri, K.Popper və s. bir çox mütəfəkkirlərin ideyaları dünyagörüşün dəyişməsində və biliyin inkişafında əhəmiyyətli rol oynamışdır.

İqtisadi dünyagörüşün dəyişməsində S.Simon U.Petti, A.Smit, A.Marşall, D.Rikardo, T.Maltus, K.Marks, C.Mill, L.Valras, C.Klark, F.List, Q.D.Makleod və digər alimlərin böyük xidmətləri olmuşdur. Onlar, iqtisadi dünyagörüşü, insan amili, insanın iqtisadi funksiyası, bilik və bacarıqların iqtisadi inkişafa təsiri, azad bazar iqtisadiyyatı, iqtisadiyyatın tənzimləməsi və s. istiqamətlərdə dəyərli tədqiqatlar aparmışlar.

Dövlətin iqtisadiyyatı tənzimləməsi problemi ilə bağlı T.Man, C.Keyns, C.Helbreyt, P.Samuelson, M.Fridmen, R.Solou, F.Modiqliani, C.Tobin, R.Barro, N.Q.Menkyu, R.Lukas, R.E.Hall, P.Romer, R.Robey, J.Brougel, C.Benoit, D.P.Barbara, Beales H. və s. başqa alimlər fundamental tədqiqatlar aparmışlar.

Azərbaycanda iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı araşdırmalar iqtisadi və siyasi müstəqillik qazandıqdan sonrakı dövrə təsadüf edir. Bu illərdə M.X.Meybullayev A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.Ə.Əliyev, Ş.M.Muradov, Ə.X.Nuriyev, A.F.Musayev,

İ.H.Alıyev, T.Ə.Quliyev, T.H.Hüseynov, Ş.S.Qafarov, N.M.Müzəf-fərli, F.F.Mustafayev, H.B.Allahverdiyev, M.A.Əhmədov, A.Ş.Şəkərəliyev, P.Q.Rzayev, Y.A.Kəlbiyev, G.Z.Yüzbaşiyeva, T.Ə.Paşa və başqa alimlər bazar iqtisadiyyatına keçid və iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı elmi-praktiki əhəmiyyət daşıyan araşdırmalar aparmışlar.

Bİ-nin formalaşması və inkişafın ilə institutlar, idarəetmə sistemi, biznes və investisiya mühiti, inam və s. arasında ciddi sinerji əlaqəsi mövcuddur. Ümumən iqtisadi inkişafda institutların rolu ilə bağlı A.Joşi, A.Madisson, Ç.Eesley, C.Visman, D.C.Nort, D.Sçiler, E.Broussieau, İ.Z.Seyfullayev, S.Vang, T.Veblen, V.H.Hamilton, V.J.Henisz, X.Su və b., biznes mühitinin iqtisadi artıma təsiri ilə bağlı A.A.Xrıseva, A.M.Veimer, A.Qlodovska, A.Y.Obuxov, C.Arkolakis, D.Lvov, D.Qrinavay, E.Helleiner, İ.V.Sonçev, J.A.Frieden, J.Cai, J.Dvorskiy, J.K Muhanika, J.Meyer-Stamer, L.C.Xu, M.H.Zeynalov, N.Bosma, N.Hozouri, N.Vang, R.Falvey, R.Roqovskiy, S.Edvards, S.Rogerson, S.Vhite, T.Ə.Əliyev, V.Keller, Z.J.Acs, Z.Lizhong, Z.Zhaoqiang və b., inam və iqtisadiyyatla bağlı F.Fukuyama, F.L.Jef-fris, I.Bohnet, P.Francois, P.Y.Zak, R.C.Mayer, S.S.Lui, T.Kuo, T.Veblen, Y.Algan və digərləri araşdırma aparmışlar.

Bilikli cəmiyyət, Bİ mövzusunda isə B.F.Cones, B.Qodin, C.Dahl-man, C.Stiqlis, D.Beckstid, D.Bell, E.Toffler, F.Hayek, F.Maxlup, G.Benoıt, İ.Brinkley, İ.Lopes, K.Popper, K.Smit, L.Edvinsson, M.Tokan, P.Kuk, P.Maskell, R.Solou, T.Stevart, T.Stouner, V.P.Valter və başqaları araşdırma aparmışlar.

Azərbaycanda Bİ ilə bağlı tədqiqatların sayı çox deyil. Bu tədqiqatlarda əsasən Bİ-nin ümumi xüsusiyyətləri, bəzi hallarda isə sahə səviyyəsində araşdırılmışdır. Bu tədqiqatlarda Bİ-nin formalaş-ması və inkişafının əsas daşıyıcısı olan İK və ona təsir edən makro amillər əhatəli şəkildə aparılmamışdır. İnsan kapitalı ilə bağlı T.Şults, H.Bekker, E.Denison, R.Solou, C.Kendrik, S.Kuznets, İ.Fişer, R.Lukas, C.Mincer, L.V.Hansen, A.Maslou, A.Sen, U.H.Mahbub, R.Leyard və digər tanınmış alimlər fundamental nəticələr əldə etmişlər. Azərbaycanda isə insan potensialı və kapitalının inkişafı ilə bağlı Ş.M.Muradov, Q.C.İmanov, X.M.Yahudov, T.Ə.Quliyev,

K.A.Şahbazov, R.Ş.Muradov, T.H.Hüseynov, G.Ə.Əzizova, C.B.Quliyev, R.S.Abdullayeva, F.Q.Musayeva, R.C.Efendiyev, P.S.Həsənov və başqaları tərəfindən əhəmiyyətli tədqiqatlar aparılmışdır.

Bİ-nin formalaşması və inkişafının təkanverici amillərindən biri də innovasiya fəaliyyətidir. İnnovasiyanın iqtisadi inkişafa təsiri Y.Şumpeter, P.Duker, A.Aaker, C.S.Metkalfe, R.Nelson, B.Santo, E.Mensfild, A.B.Jaffe, D.Saxal, N.Rozenberq, H.Ulku, R.P. Maradana S.Thangavelu, X.Long, J.Dempere və başqaları tədqiqatlar aparmışlar. Azərbaycanda isə A.F.Musayev, T.N.Əliyev, Q.S.Süleymanov, Z.M.Nəcəfov, F.H.Qasımov, A.D.Hüseynova, S.H.Abasova, R.K.İsgəndərov, R.M.Cəbiyev, P.Ə.Həsənova, İ.A.Aslanzadə, E.E.Məmmədzadə, A.H.Tağıyev və başqaları innovativ inkişaf, innovasiya fəaliyyəti, innovasiyaların iqtisadi inkişafda rolu mövzusunda araşdırma aparmışlar.

Bİ-nin formalaşması və inkişafında TEİS mərkəzi yeri tutur. Bu günə qədər dünyada və Azərbaycanda təhsilin və elmin, İKT-nın sosial-iqtisadi inkişafda roluna həsr olunmuş çoxsaylı tədqiqatlar aparılmışdır. Bu problem xarici ölkə alimlərindən J.S.Coleman, İ.Öztürk, R.J.Barro, A.V.Cooray, D.N.Veil, D.Çekkhi, A.B.Krueger, E.A.Hanuşek, R.G.Ehrenberg, C.Devey, B.Levinger, O.Liu, R.Atkinson, T.Astebro, H.Bulut, C.Vieman və başqaları, Azərbaycan alimlərindən Z.F.Məmmədov, Ü.Q.Əliyev, C.B.Quliyev, H.A.Həmidov və başqaları tərəfindən tədqiq edilmişdir.

Elmin iqtisadiyyatı ilə bağlı xarici ölkə alimlərindən K.Arrou, B.Hall, A.Toffler, N.Kondratyev, B.Z.Milner, Q.M.Dobrov, N.Rosenberq, R.Nelson, K.Nelson, P.A.Kulvets, L.E.Mindeli, V.A.İlin, Q.İçkoviç, D.Stein, D.Audretis, F.Aqion, R Belderbos, P.A.David, C.Franzoni, D.Lentile, P.Heinze, N.H.Steneck, S.L.Titus və başqaları, Azərbaycan alimlərindən Ş.M.Muradov, A.F.Musayev, S.S.Xəlilov, R.K.İsgəndərov, R.A.Agayev, G.ƏGənciyev, A.D.Hüseynova, S.B.Məmmədov və başqaları tərəfindən tədqiqatlar aparılmışdır.

İnformasiya təminatının Bİ formalaşması və inkişafında rolu ilə bağlı xarici ölkə alimlərindən S.J.Grossman, İ.Masuda, M.Kastels, H.S.Dordik, J.E.Stiglitz, E.Coiera, C.Shapiro, J.C.Aker, C.Degryse, V.L.İnozemtsev, R.Nijeqorodsev Azərbaycan alimlərindən Ə.M.Ab-

basov, R.M.Əliquliyev, T.Q.Əliyev, G.İ.İsmayılov, M.H.Məmmədova, L.Ə.Allahverdiyeva, Ə.Q.Əliyev və başqaları araşdırma aparmışlar.

Əlbəttə ki, hər bir elmi-tədqiqat əhəmiyyətlidir, özündən əvvəlkilərdən fərqli və spesifik xüsusiyyətə malikdir. Bu tədqiqatın ölkəmizdə və xaricdə aparılan tədqiqatlardan əsas fərqi ondan ibarətdir ki, burada Bİ-nin inkişafının tənzimlənməsi ilə iqtisadi və qeyri-iqtisadi amillər arasındakı qarşılıqlı əlaqənin sinerji effekti kompleks halda qiymətləndirilmiş, yeni metodologiya əsasında biliyin inkişafının və onun əsas sütunları olan təhsil, elm, innovasiya, informasiya fəaliyyətinin liberallıq-dirijistlik dərəcəsi ölçülmüşdür. Cəmiyyətdə biliyin, rəqəmsallaşmanın, süni intellektin, robotlaşmanın sürətlə inkişaf etdiyi müasir dövrdə qoyulan problemin tədqiq xüsusi aktuallıq kəsb edir.

**Tədqiqatın obyektini** Bİ-nin inkişafına təsir göstərən makro amillər (institutlar, biznes mühiti, innovasiya-investisiya fəaliyyəti, insan kapitalı, inam və s.) və təhsil, elm, informasiya sektorları (TEİS), **predmetini** isə Bİ-nin formalaşması və inkişafına təsir göstərən makro amillərlə TEİS arasındakı iqtisadi əlaqə, hadisə və münasibətlərin nəzəri, metodoloji və praktiki məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədini Bİ-nin inkişafına birbaşa və dolayı təsir göstərən iqtisadi və qeyri-iqtisadi xarakterli makro amillərin müəyyənləşdirilməsi, bu amillərlə TEİS, innovasiya-investisiya fəaliyyəti, İK-in istifadəsi arasında qarşılıqlı əlaqənin qiymətləndirilməsi, biliyin inkişafı sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması təşkil edir. Bu məqsədə nail olmaq üçün 7 əsas vəzifə qarşıya qoyulmuşdur.

**1. Cəmiyyətin inkişaf mərhələlərində və dünyagörüşün dəyişməsində biliyin roluna dair konsepsiyaların öyrənilməsi və müəllif yanaşmasının irəli sürülməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün cəmiyyətin inkişaf mərhələləri, dünyagörüşü, idrak, bilik və elmi bilik, Bİ-nin mahiyyəti ilə bağlı sosial-iqtisadi və fəlsəfi-iqtisadi baxışlar tədqiq ediləcək, biliyin

inkişafının dünyagörüşün dəyişməsinə, iqtisadi inkişafa və əhalinin rifah səviyyəsinin yaxşılaşmasına təsiri araşdırılacaqdır.

**2. Bİ-nin formalaşması və inkişafının makro amilləri və bu amillərlə innovasiya, investisiya və insan kapitalı arasında qarşılıqlı əlaqəsinin tədqiq edilməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün, biliyin inkişafına bilavasitə və dolayısı ilə təsir edən iqtisadi və qeyri-iqtisadi amillər araşdırılacaq, Bİ-nin tənzimlənməsinə, insan kapitalının inkişafına, innovasiya-investisiya fəaliyyətinə yanaşmalar öyrəniləcək, makro amillər arasında sinerji effektinə əsaslanan qarşılıqlı əlaqələr tədqiq ediləcəkdir.

**3. TEİS-in səmərəliliyi ilə makro amillər arasında qarşılıqlı əlaqənin, biliyin inkişafında rolu, sahələrin tənzimlənməsinin nəzəri aspektlərinin tədqiq edilməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün, TEİS-in tənzimlənməsi və biliyin inkişafına təsiri, bu sahələr arasında formalaşan münasibətlər, iqtisadi və qeyri-iqtisadi xarakterli makro amillərlə sahələr arasındakı qarşılıqlı əlaqələrin nəzəri-metodoloji aspektləri tədqiq ediləcəkdir.

**4. Bİ-nin formalaşması və inkişafı ilə makro amillər arasındakı əlaqənin sinerji effektinin qiymətləndirilməsi, ölkələrarası müqayisələrin aparılması, Azərbaycanda Bİ-nin inkişafı problemlərinin aşkar edilməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün, makro amillərlə bilik və bacarıqların, innovasiyaların, insan kapitalının inkişafı arasındakı qarşılıqlı əlaqələr beynəlxalq hesabatlara və statistik məlumatlara əsaslanaraq qiymətləndiriləcək, Azərbaycanda biznes mühitinin de-fakto və de-yure əlverişliliyi, innovasiya-investisiya mühiti, insan kapitalının inkişafı təhlil ediləcək, ölkələrarası müqayisəli təhlillər aparılacaq, Bİ-nin makro amilləri arasındakı sinerji əlaqələr qiymətləndiriləcəkdir.

**5. TEİS ilə bağlı mövcud vəziyyətin təhlil edilməsi, ölkələrarası müqayisələrin aparılması, makro amillərlə TEİS arasındakı sinerji əlaqələrin qiymətləndirilməsi, sahələrin inkişafına mane olan problemlərin müəyyən edilməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün, Azərbaycanda TEİS-in mövcud vəziyyəti və inkişaf səviyyəsi ölkələrarası müqayisələrə

əsaslanaraq təhlil ediləcək, kəmiyyət, keyfiyyət və faydalılıq üzrə qiymətləndirmə aparılacaq, sahədaxili, sahələrarası və sahəxarici amillərin qarşılıqlı əlaqəsi qiymətləndiriləcək, sahələrin inkişafına maneə yaradan problemlər aşkar ediləcəkdir.

**6. Bİ-nin liberallığı-dirijistliyi səviyyəsinin ölçülməsi, ölkələrarası müqayisəli təhlillərin aparılması, TEİS və innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi dərəcəsinin qiymətləndirilməsi.**

Bu vəzifənin yerinə yetirilməsi üçün, elm, təhsil, informasiya və innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi (liberallığı-dirijistliyi) dərəcəsi yeni metodologiya əsasında ölçüləcək, ***Bilik İqtisadiyyatının Liberallığı-Dirijistliyi İndeksi (BİLDİ)***, o cümlədən TEİS-in tənzimlənməsi dərəcəsi hesablanacaq, ölkələrarası müqayisəli təhlillər və qiymətləndirmələr aparılacaq, sahələrə dövlət müdaxiləsinin üstün və zəif tərəfləri qiymətləndiriləcəkdir.

**7. Azərbaycanda Bİ-nin formalaşması və inkişafının sürətləndirilməsi, makro amillər və sahələr üzrə tənzimləmə mexanizminin səmərəliliyinin daha da yaxşılaşdırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin verilməsi.**

Bu vəzifənin icrası üçün, əvvəlki bölmələrdə əldə edilmiş nəzəri nəticələrə, təhlil və qiymətləndirmələrə əsaslanaraq, makro amillərin biliyin inkişafına təsirinin daha da yaxşılaşdırılması ilə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələr hazırlanacaqdır.

**Tədqiqat metodları.** Tədqiqat işində analiz, sintez, induksiya, deduksiya, müqayisəli və sistemli təhlil, statistik ölçmə, məntiqi analiz, sinergetik yanaşma, müşahidəetmə, korrelyasiya, ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Cəmiyyətin inkişaf mərhələləri ilə biliyin inkişaf sürəti arasında birbaşa əlaqə mövcuddur. Biliyin inkişaf sürəti artdıqca cəmiyyətin inkişaf mərhələlərinə keçidi arasındakı zaman da qısalır.
2. Bilik, məhsuldarlığın və rəqabətin güclənməsinə təsir göstərərək dünyagörüşün (milli, iqtisadi, siyasi, dini və s) dəyişməsinə, dünyagörüşün dəyişməsi ilə biliyin inkişafına təkan verir.
3. Bir sıra iqtisadi və qeyri-iqtisadi makro amillər Bİ-nin formalaşması və inkişafına əhəmiyyətli sinerji təsiri göstərir.

4. Bİ-nin inkişafı İK-in keyfiyyətinin artırılması, qazanılmış biliklərin iqtisadi dəyərə çevrilməsi mühitin əlverişliliyindən, eləcə də makroamillər arasındakı əlaqənin səmərəliliyindən asılıdır.

5. Bİ-nin inkişafı innovasiya-investisiya fəaliyyəti ilə makro amillər arasında qarşılıqlı əlaqənin tənzimlənməsinin səmərəliliyindən asılıdır

6. TEİS-in iqtisadi faydalılığının və Bİ-də rolunun yüksəldilməsi üçün sistemdaxili və sistemxarici amillərin diqqətdə saxlanılması mühüm şərtdir.

7. Makroiqtisadi sabitlik, institutların səmərəliliyi, mülkiyyət hüquqlarının qorunması, infrastrukturun mövcudluğu, biznes mühitinin de-fakto əlverişliliyi və biznesin gələcəyinə inam Bİ-nin formalaşması və inkişafının sürətləndirilməsinin zəruri şərtidir.

8. İK-in formalaşması, istifadəsi və inkişafı ümumi ictimai-siyasi mühitdən, təhsil və səhiyyə sistemindən, makro amillərin (institutlar, biznes mühiti, əmək bazarı və s.) tənzimlənməsindən və sosial müdafiə sistemindən asılıdır.

9. Azərbaycan innovativ inkişaf üçün müəyyən potensiala (İK, investisiya, infrastruktur və s.) malik olsa da, bu potensialdan istifadə səviyyəsi aşağıdır.

10. Bİ-nin formalaşması və inkişafı yalnız təhsil xidmətlərinin sistemdaxili şərtlərindən deyil, həm də təhsilə yönəldilən xərclərin səmərəli istifadəsi və sistemxarici amillərin təsirindən əhəmiyyətli dərəcədə asılıdır.

11. Azərbaycanda elmi-tədqiqat fəaliyyəti ilə biznes sektor arasında əlaqə çox zəifdir və bu biznes mühitinin de-fakto əlverişliliyindən və biznesə inamdan əhəmiyyətli dərəcədə asılıdır.

12. Bİ-nin inkişafı bütövlükdə informasiyanın (elmi, texniki, texnoloji) toplanması, emalı, saxlanması, dili, sürəti və əlçatanlığı səviyyəsindən asılıdır.

13. Bİ-nin formalaşmasının sürətləndirilməsi liberal yönümlü tənzimləmə siyasətinin həyata keçirilməsi tələb edir və bu, biliyin inkişafını stimullaşdırır.

14. Təhsil sisteminin, xüsusilə universitetə qədərki təhsilin dirijist, universitet təhsilinin isə liberal tənzimləməyə əsaslanması mühüm şərtdir.

15. Elmi fəaliyyətin liberalıq yükünün yüksək, təşviqedici mexanizmlərin elastik olması biliyin inkişafı üçün mühüm şərtdir.

16. İnnovasiya fəaliyyətinin səmərəli olması üçün MİS-in elementlərinin əsasən liberal-təşviqedici üsullarla tənzimlənməsi mühüm şərtdir.

17. İnformasiya təminatının tənzimlənməsinin liberal-təşviqedici əsaslı olması informasiya məhsulunun əlyetərliyi üçün mühüm şərtdir.

18. İqtisadi və qeyri iqtisadi makro amillərlə, İK-in keyfiyyəti, TEİS, innovasiya-investisiya fəaliyyəti bir-biri ilə effektiv qarşılıqlı əlaqədə olduğu halda Bİ "mühərrikinin" faydalı iş əmsalı yüksəlir. Burada, "Mühərriki hərəkətə gətirən" elementlərin dirijist, "hərəkəti sürətləndirən" elementlərin liberal tənzimləməyə əsaslanması şərtdir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

1. Mövcud yanaşmalardan fərqli olaraq, cəmiyyətin inkişafı 7 mərhələyə: aqoaqrar, aqrar, aqosənaye, sənaye, postsənaye, bilikli və nano cəmiyyətə bölünmüşdür.
2. Bilik və bacarıqların yeni iqtisadiyyatın spesifik istehsal amili, Bİ-nin isə cəmiyyətin rəqabətli və dayanıqlı inkişafını təmin edən universal sistem olması əsaslandırılmışdır.
3. Bİ-nin inkişafının iqtisadi və qeyri-iqtisadi makro amilləri müəyyən edilmiş, amillər arasındakı qarşılıqlı əlaqələrin sinerji effektinə malik olması əsaslandırılmışdır.
4. İK-in formalaşdırılması, kəmiyyəti və keyfiyyəti, səmərəli istifadəsi ilə makro amillər arasında qarşılıqlı əlaqənin Bİ-da sinerji effektinə malik olmasının nəzəri aspektləri əsaslandırılmışdır.
5. İqtisadi və qeyri-iqtisadi makro amillərin tənzimlənməsi ilə innovasiya-investisiya fəaliyyətinin inkişafı arasındakı qarşılıqlı əlaqənin Bİ quruculuğuna sinerji effekti nəzəri baxımdan əsaslandırılmışdır.
6. Biliyin inkişafına təhsil, elm və informasiya sektorlarının daxili amilləri ilə müqayisədə sistemxarici makro amillərin daha güclü təsir effektinə malik olması nəzəri cəhətdən əsaslandırılmışdır.
7. Bİ formalaşması və inkişafı ilə iqtisadi və qeyri- iqtisadi makro amillər arasında güclü korrelyasiya və sinerji effekti mövcuddur və bu nəticə ümumi səciyyə daşıyır.

8. *İlk dəfə olaraq, fərqli metodologiya (formalaşma, kapitallaşma, istifadə və səmərəlilik) əsasında 92 ölkə üzrə* ***İnsan Kapitalının İnkişafı İndeksi*** *(İKİİ) hesablanmış və reytinq sırası tərtib edilmişdir.*

9. Azərbaycanda İK-in inkişafına çəkilən ümumi xərclərin həcmi hesablanmış, makro amillərlə İK-in formalaşması, istifadəsi və faydalılığı arasındakı sinerji effekti qiymətləndirilmişdir.

10. İnnovasiya-investisiya fəallığı ilə Bİ, de-fakto biznes mühiti, inam, institutların səmərəli, mülkiyyət hüquqlarının qorunması, həmçinin stimullaşdırıcı və təşviqedici mexanizmlər arasında güclü əlaqənin olması əsaslandırılmışdır.

11. Təhsilin keyfiyyəti və iqtisadi faydalılığı ilə makro amillər (institutlar, biznes mühiti, inam, əmək bazarı və s.) arasında güclü sinerji effektinin olması əsaslandırılmışdır.

12. Elmin inkişafı ilə biznes mühitinin de-fakto əlverişliliyi, inam və digər amillər arasında güclü səbəb-nəticə əlaqəsi mövcudluğu əsaslandırılmışdır.

13. Bİ inkişafı ilə cəmiyyətin zəruri (elmi-texniki, texnoloji və s.) informasiyalara təmin olunması və makro amillər arasındakı sinerji effekti qiymətləndirilmişdir.

14. İlk dəfə olaraq, ***Bilik İqtisadiyyatının Liberallığı-Dirijistliyi İndeksi (BİLDİ)*** hesablanmış və Bİ üçün liberal yanaşmanın zəruriliyi əsaslandırılmışdır.

15. İlk dəfə olaraq, ***Təhsil Sisteminin Liberallığı-Dirijistliyi İndeksi (TSLDİ)*** hesablanmış, ümumən təhsil sisteminin dirijist, yəni sistemə dövlət müdaxiləsinin yüksək olmasının əhəmiyyəti əsaslandırılmışdır.

16. İlk dəfə olaraq, ***Elmi Fəaliyyətin Liberallığı-Dirijistliyi İndeksi (EFLDİ)*** hesablanmış, elmin fəaliyyətin inkişafı üçün liberal yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.

17. İlk dəfə olaraq, ***İnnovasiya fəaliyyətinin Liberallığı-Dirijistliyi İndeksi (İFLDİ)*** hesablanmış, innovasiya fəaliyyətinin tənzimlənməsinə liberal "elastik" yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.

18. ***İnformasiya Təminatının Liberallığı-Dirijistliyi İndeksi (İTLDİ)*** hesablanmış, elmi, texniki, texnoloji informasiyaların əlyetərliyinin liberallıq yükünün yüksək olmasının əhəmiyyəti əsaslandırılmışdır.

19. İlk dəfə olaraq, Bİ "mühərrikinin" faydalı iş əmsalının yüksəldilməsi üçün ***dirijist və liberal tənzimləmənin balanslı kombinasiyasının modeli verilmiş***, "tələb təzyiqi" ilə "biliyin təzyiqi" arasındakı əlaqənin, eləcə də formalaşma prosesində dirijist yanaşmanın, inkişaf prosesində liberal yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatdan əldə edilmiş nəzəri nəticələr dövlət proqramları və strategiyalarının hazırlanmasında, elmin iqtisadiyyatı, biliyin iqtisadiyyatı, təhsilin iqtisadiyyatı, informasiya iqtisadiyyatı və innovasiya fəaliyyətinin təşkili fənlərinin tədrisində tətbiq edilə bilər.

Eyni zamanda, tədqiqatın nəticələri Bİ-nin inkisafı ilə bağlı problemlərin həllində, bu sahədə proqram və konsepsiyaların hazırlanmasında, dövlət müdaxiləsinin optimallaşdırılmasında və ümumiyyətlə iqtisadi inkişafda biliyin rolunun artırılmasına yönəlmiş qərarların qəbulunda istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin nəticəsindən "*İnnovasiya fəaliyyəti haqqında" Qanun* layihəsinin hazırlanmasında (3 avqust 2010-cu il tarixli 17/06-5/92-5/854 saylı arayış), "*Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya*" və "*Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı*"nın hazırlanmasında (18 aprel tarixli 01-8/408 saylı arayış), "*Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası*"nın hazırlanmasında (18 aprel 2013-cu il tarixli 01-8/409 saylı arayış), *"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"* üzrə sənədlərin ekspertizasında yekun sənədinin hazırlanmasında (21 iyul 2017-ci il tarixli 138/003/17 saylı arayış) istifadə olunmuşdur. Bunlardan başqa, müəllif Azərbaycanda, Eyni zamanda 20-dən çox Beynəlxalq elmi-praktik konfransda məruzə edilmişdir.

Dissertasiya mövzusuna dair ümumilikdə 500.000-dən çox işarədən ibarət 93-dən artıq elmi əsər dərc olunmuşdur. Bunlara 11 kitab (1 fərdi monoqrafiya, 1 dərs vəsaiti, 3 birgə müəllifli və kollektiv monoqrafiya) və 82 məqalə və tezis daxildir. Məqalə və tezislərdən 22-si xarici jurnallarda, o cümlədən 2-si SCOPUS elmi bazasında indekslənən jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AR ETN İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya işinin həcmi və quruluşu.** Tədqiqat işi giriş, 8 fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, kompüterdə yığılmış 440189 işarə həcmindədir. Burada 15 şəkil, 65 qrafik, 12 əsas cədvəl, 11 əlavə cədvəl verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, türk, rus və ingilis dillərində olan 592 ədəbiyyat (578+14 ədəbiyyat sonradan əlavə edilmiş) mənbəyi və internet resursları daxil olmaqla mənbədən istifadə olunmuşdur.

**Giriş**
**FƏSİL I. DÜNYAGÖRÜŞÜN DƏYİŞMƏSİ İLƏ BİLİYİN İNKİŞAFI ARASINDA QARŞILIQLI ƏLAQƏNİN NƏZƏRİ ASPEKTLƏRİ**
1.1. Cəmiyyətin inkişaf mərhələlərində biliyin roluna dair konsepsiyalar
1.2. Dünyagörüşün dəyişməsi və biliyin inkişafına fəlsəfi-iqtisadi baxış
1.3. Bilik iqtisadiyyatının formalaşmasının nəzəri-metodoloji əsaslarışdır.

**FƏSİL II. BİLİK İQTİSADİYYATI QURUCULUĞUNA TƏSİR EDƏN MAKRO AMİLLƏRİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**
2.1. Biliyin inkişafına təsir göstərən makro amillərə nəzəri baxış
2.2. İnnovasiya-investisiya mühitinin tənzimlənməsinin nəzəri aspektləri
2.3. İnsan kapitalının formalaşmasına təsir edən makro amillərin tənzimlənməsi

**FƏSİL III. BİLİYİN İNKİŞAFINDA BİLAVASİTƏ İŞTİRAK EDƏN SAHƏLƏRİN FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI**
3.1. Təhsil sisteminin tənzimlənməsinin sosial-iqtisadi əsasları
3.2. Elmi fəaliyyətin tənzimlənməsinin təşkilati-iqtisadi aspektləri
3.3. İnformasiya təminatının tənzimlənməsinin konseptual əsasları

**FƏSİL IV. AZƏRBAYCANDA BİLİK İQTİSADİYYATININ FORMALAŞMASINA TƏSİR EDƏN MAKRO AMİLLƏRİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRMƏSİ**
4.1. Makroiqtisadi sabitlik, biznes mühiti və qarşılıqlı inamla biliyin inkişafı arasında əlaqənin qiymətləndirilməsi
4.2. Azərbaycanda insan kapitalının formalaşması və istifadəsinə təsir edən amillərin təhlili
4.3. İnnovasiya fəaliyyəti ilə investisiya mühiti arasında əlaqənin dəyərləndirilməsi

**FƏSİL V. AZƏRBAYCANDA TƏHSİL, ELM VƏ İNFORMASİYA SEKTORLARININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ BİLİYİN İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**
5.1. Təhsil xidmətlərinin mövcud vəziyyətinin təhlili və makroamillərlə qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi
5.2. Elmin potensialın mövcud vəziyyətinin qiymətləndirilməsi
5.3. İnformasiya təminatı sisteminin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

**FƏSİL VI. BİLİK İQTİSADİYYATI QURUCULUĞUNUN LİBERALLIQ VƏ DİRİJİTLİK SƏVİYYƏSİNİN ÖLÇÜLMƏSİ: METODOLOGİYA VƏ ÖLKƏLƏRARASI MÜQAYİSƏLİ QİYMƏTLƏNDİRMƏ**

**FƏSİL VII. AZƏRBAYCANDA BİLİK İQTİSADİYYATININ FORMALAŞMASINA VƏ İNKİŞAFINA MARKOAMİLLƏRİN TƏSİRİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ**

7.1. Bilik iqtisadiyyatını hərəkətə gətirən amillərin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi mexanizmi

7.2. Makro amillərin tənzimlənməsinin bilik iqtisadiyyatına təsirinin yaxşılaşdırılması

7.3. İnsan kapitalının formalaşması və istifadəsinin yaxşılaşdırılması yolları

7.4. İqtisadiyyatda innovasiya fəallığının yüksəldilməsi yolları

**FƏSİL VIII. AZƏRBAYCANDA BİLİK İQTİSADİYYATININ SEKTRORİAL TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ**

8.1. Təhsil xidmətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

8.2. Elmin inkişafı və tədqiqatların nəticələrinin kommersiyalaşması yolları

8.3. Cəmiyyətin informasiya təminatının yaxşılaşdırılması istiqamətləri

**DİSSERTASİYANIN YEKUN NƏTİCƏSİ VƏ MÜƏYYƏN EDİLMİŞ PROBLEMLƏRİN HƏLLİ YOLLARI**

Akronimlər

Yeni anlayışlar

Nəzəri və praktiki nəticələr

Elmi nəticələr

Problemin həlli ilə bağlı təklif və tövsiyələr

İstifadə olunmuş ədəbiyyat siyahısı

Əlavələr

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI, MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALARI VƏ ELMİ YENİLİKLƏRİ

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi, dissertasiyanın quruluşu və həcmi haqqında ətraflı məlumat verilmişdir.

**Dissertasiyanın "Dünyagörüşün dəyişməsi ilə biliyin inkişafı arasında qarşılıqlı əlaqənin nəzəri aspektləri"** adlı birinci fəslində cəmiyyətin inkişaf mərhələləri, bu mərhələlərin dəyişməsinə biliyin, dünyagörüşün təkanverici təsirinə dair konsepsiyalar, Bİ ilə bağlı baxışlar öyrənilmiş və sistemləşdirilmişdir.

İşdə dünyagörüşün dəyişməsi və biliyin inkişafı arasındakı qarşılıqlı əlaqənin fəlsəfi-iqtisadi aspektləri öyrənilmiş, "postsənaye cəmiyyəti" "bilikli cəmiyyət", "informasiya cəmiyyəti" "bilik iqtisadiyyatı" anlayışlarına aydınlıq gətirilmiş, cəmiyyətin və biliyin inkişafına mentalitet, iqtisadi, siyasi, dini dünyagörüşün təsirinin nəzəri aspektləri araşdırılmış, bir sıra mühüm nəticələr əldə edilmişdir.

***Müddəa:*** *Cəmiyyətin inkişaf mərhələləri ilə biliyin inkişaf sürəti arasında birbaşa əlaqə mövcuddur. Biliyin inkişaf sürəti artdıqca cəmiyyətin inkişaf mərhələlərinə keçidi arasındakı zaman da qısalır.*

***Elmi yenilik:*** *Mövcud yanaşmalardan fərqli olaraq, cəmiyyətin inkişafı 7 mərhələyə: aqo-aqrar, aqrar, aqo-sənaye, sənaye, post-sənaye, bilikli və nano cəmiyyətə bölünmüşdür.*

**Əsaslandırma.** Cəmiyyətin inkişaf mərhələləri arasında "zamanın" qısalmasını məhz biliyin inkişafı və dünyagörüşün dəyişməsi ilə bağlıdır. Əgər kənd təsərrüfatından sənayeyə keçid üçün min illər tələb olunmuşdursa, sənayedən post-sənayeyə keçid üçün təqribən 300 il kifayət etmişdir. Ovçuluq alətlərinin düzəldilməsi, qorunma yerlərinin hazırlanması, odun və yazının kəşfi, insan həyatı üçün önəm kəsb edən fəaliyyətlər prosesi sürətləndirmişdir. Yeni biliyin (burada təcrübə) yaranması, ötürülməsi və yayılması prosesi sürətləndikcə, elmi biliklər inkişaf etdikcə, istehsal vasitələri

təkmilləşdikcə və biliyin yayılma imkanları artdıqca, cəmiyyətin inkişaf mərhələləri arasındakı müddət də qısalmışdır.

İşdə bu istiqamətdə aparılan tədqiqatların nəticələrinə əsaslanaraq, cəmiyyətin inkişaf mərhələləri 7 mərhələyə bölünmüşdür:

**1. Aqo-aqrar** ("aqo" yunan sözü olub "qədərki" mənasını verir) **cəmiyyət:** Bu mərhələ b.e.ə. 100-cü əsrə qədərki dövrü əhatə edir. İnsanlar bu mərhələdə ovçuluq və yığıcılıqla məşğul olmuşlar.

**2. Aqrar cəmiyyət:** Aqrar cəmiyyət e.ə. 100-cü əsrdən eramızın IV əsrinə qədər (təxminən 10400 il) davam etmişdir. Bu dövrdə oturaq həyat tərzi formalaşmış, əkinçilik, maldarlıq və toxuculuq inkişaf etmiş, yaşayış yerləri tikilmiş və yeni məşğulluq növləri yaranmışdır.

**3. Aqo-sənaye cəmiyyəti:** Bu mərhələ V əsrdən XVII əsrə qədər davam etmişdir. Aqosənaye (sənayeləşməyə qədərki) dövründə kənd təsərrüfatı məhsullarının emalı üçün istehsal alətləri və mexaniki vasitələr inkişaf etmişdir.

**4. Sənaye cəmiyyəti:** Sənayeləşmə dövrü XVII əsrin ikinci yarısından başlayaraq XX əsrin 70-ci illərinə qədər davam etmişdir. Bu mərhələ ixtiralar və iqtisadi inqilablarla yadda qalmışdır.

**5. Post-sənaye cəmiyyəti:** Post-sənaye dövrü xidmət sektorunun üstünlüyünə əsaslanır və keçən əsrin 70-ci illərindən başlayaraq XXI əsrin əvvəllərinə qədər (təxminən 30 il) davam etmişdir.

**6. Bilik cəmiyyəti və ya informasiya cəmiyyəti:** Bu mərhələ hər hansı sahənin deyil biliyin və informasiyanın üstünlüyünə əsaslanan "bilikli cəmiyyət"dir. Bu mərhələdə bilik iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsini təşkil edir.

**7. Nano-cəmiyyət və ya texno-cəmiyyət:** Bu mərhələ yaşadığımız dövrü xarakterizə edir, süni intellekt, rəqəmsallaşma, fərdiləşmə ilə xarakterizə olunur. Bu mərhələ fərdlərin iqtisadiyyatı və texnoloji nailiyyətlərlə səciyyələnir.

***Müddəa:*** *Bilik, məhsuldarlığın və rəqabətin güclənməsinə təsir göstərərək dünyagörüşün (milli, iqtisadi, siyasi, dini və s) dəyişməsinə, dünyagörüşün dəyişməsi ilə biliyin inkişafına təkan verir.*

***Elmi yenilik:*** *Bilik və bacarıqların yeni iqtisadiyyatın spesifik istehsal amili, Bİ-nin isə cəmiyyətin rəqabətli və dayanıqlı inkişafını təmin edən universal sistem olması əsaslandırılmışdır.*

**Əsaslandırma.** “Bilik” anlayışının izahı ilk baxışdan sadə görünsə də, əslində o qədər də sadə deyil, çünki yeni biliklər uzun mərhələlərdən, mürəkkəb proseslərdən, sınaqlardan keçərək inkişaf edir, dünyagörüşü dəyişən faydalı “məhsula” çevrilir. Biliyin inkişafı həm ümumi, həm də iqtisadi dünyagörüşün dəyişməsinə təsir edir. Məhz bu dəyişikliklər cəmiyyətin bir inkişaf mərhələsindən digərinə keçməsinə təkan verir. Bir çox tədqiqatlarda bilik 3 hissəyə: adi (həyati), təcrübi və elmi biliklərə bölünür.

Cəmiyyətlərdə siyasi, iqtisadi, bəzən isə dini dünyagörüşü biliyin inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Şübhəsiz ki, cəmiyyətdə bilik səviyyəsinin aşağı olması dünyagörüşün inkişafına maneə yaradır. Bu baxımdan qazanılmış biliklər təfəkkürün, dünyagörüşün dəyişməsinin, sosial-iqtisadi inkişafın əsas hərəkətvericisi gücüdür. Dünyagörüşün dəyişməsinə iqtisadi hadisə və proseslər, həyat tərzi dini inanclar, siyasi mühit və s. də təsir göstərir.

Bütün bu fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, biliyin inkişafı ilə dünyagörüşün dəyişməsi (təkamülü) arasında sıx qarşılıqlı əlaqə vardır. Biliyin inkişafı fasiləsiz dövrü və mərhələli prosesdir. Cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsi bu prosesin bütün mərhələlərini bir sistem kimi əlaqələndirir.

Ümumiyyətlə, dünyagörüşü ilə bağlı bütün yanaşmalarda insanın təbiətə və cəmiyyətə münasibəti, əqidəsi, idraki fəaliyyəti, dünyanı və özünü dərketməsi prinsipi əsas xətt kimi keçir. Bu mənada dünyagörüşü cəmiyyətin (*insanların*) gerçəkliyə münasibətini və insanların fəaliyyət istiqaməti və onun təkmilləşdirilməsi ilə bağlı baxışlar, ideyalar və normalar sistemi kimi səciyyələndirmək olar. Bütün hallarda dünyagörüşün dəyişməsi biliyin inkişafı ilə mümkün olur. İqtisadi və siyasi dünyagörüşü də buna daxildir.

İşdə Bİ-yə biliyin inkişafı nəticəsində yüksək sosial-iqtisadi fayda əldə edən iqtisadiyyat, başqa sözlə, iqtisadi inkişafda bilik və innovasiyanın hökmranlıq etdiyi iqtisadiyyat kimi baxılır. Bİ – biliyin inkişafına bilavasitə və dolayısı ilə xidmət edən sektorların (və sahələrin) bir-biri ilə sıx bağlı hərəkət etdiyi açıq sistemdir. Bu proses yeni ideyanın innovativ məhsula (dəyərə) çevrilməsi üçün çevik stimullaşdırıcı (*təşviqedici*) tənzimləmə mexanizminin tətbiqini ön plana çıxarır.

Dissertasiyanın **"Bilik iqtisadiyyatı quruculuğuna təsir edən makro amillərin tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlı ikinci fəslində Bİ-nin formalaşması və inkişafına təsir edən əsas makro amillər araşdırılmış, makro amillərin Bİ sistemi ilə qarşılıqlı əlaqəsi tədqiq edilmiş, müəllif yanaşmaları irəli sürülmüşdür. İşdə sağlam rəqabət, makroiqtisadi sabitlik, biznes mühiti, qarşılıqlı inam, innovasiya-investisiya mühiti, insan kapitalı, institutlar, mülkiyyət hüququ və s. makro amillərin Bİ quruculuğuna təsiri nəzəri cəhətdən qiymətləndirilmiş, bir neçə mühüm nəticə əldə edilmişdir.

***Müddəa:*** *Bir sıra iqtisadi və qeyri-iqtisadi makro amillər Bİ-nin formalaşması və inkişafına əhəmiyyətli sinerji təsiri göstərir.*

***Elmi yenilik:*** *Bİ-nin inkişafının iqtisadi və qeyri-iqtisadi makro amilləri müəyyən edilmiş, amillər arasındakı qarşılıqlı əlaqələrin sinerji effektinə malik olması əsaslandırılmışdır.*

***Əsaslandırma.*** Bİ-nin tənzimlənməsinin makro amilləri dedikdə, biliyin iqtisadi faydaya çevrilməsinə əhəmiyyətli rol oynayan iqtisadi və qeyri-iqtisadi amillər nəzərdə tutulur. Buraya: makroiqtisadi sabitlik, biznes, innovasiya və investisiya mühiti, institutlar, mülkiyyət hüquqları, inam, dövlətin bütövlüyü, qanunların aliliyi, İK-in keyfiyyəti və səmərəli istifadəsi və s. nəzərdə tutulur. Bu amillər biri-biri ilə nə qədər sıx bağlıdır və biri digərinin fəaliyyətinə təsir göstərir. Eyni zamanda hər bir amilin özünəməxsus təsir gücü və tərkib elementləri, tənzimləmə mexanizmi vardır. Burada əsas məsələ tənzimləmənin effektivliyinə nail olmaqdır.

Əlbəttə ki, bütün ölkələrdə dövlətin (hökumətin) iqtisadi hadisə və prosesləri tənzimləməyir və bu dövlətlərin varlığının əsasıdır. Lakin tənzimləmənin səmərəliliyi iqtisadiyyatın inkişaf səviyyəsindən, dövlətin öz üzərinə götürdüyü sosial öhdəliklərin əhatəsindən, ictimai-siyasi mühitdən, mentalitetdən, qlobal və ölkə səviyyəsində baş verən hadisə və proseslərdən asılı olaraq dəyişə və fərqli nəticələr verə bilər. Yəni dövlətin iqtisadiyyata müdaxiləsi bəzən inkişafı sürətləndirir, bəzən də ya durğunluq yaradır, yaxud da tənəzzülə səbəb olur.

Bütün hallarda Bİ-nin tənzimləyici makro amilləri arasındakı qarşılıqlı əlaqənin biliyin inkişafına təsirinin səmərəliliyi cəmiyyətdə və iqtisadiyyatda müsbət sinerji effektinə malik olur. Bunu nəzərə

alaraq, dünyanın inkişaf etmiş ölkələrində müxtəlif stimullaşdırıcı və təşviqedici tənzimləmə metod və alətlərdən istifadə olunur.

Bİ-nin inkişafının tənzimlənməsinin makro amilləri və onlar arasında qarşılıqlı əlaqə aşağıdakı şəkildə verilmişdir. (Şəkil 1)




**Şəkil 1. Bİ quruculuğuna təsir edəm amillər**

*Qeyd. Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Makro amillərin bir-biri ilə, iqtisadiyyatın sektorları və alt-sahələri arasında əlaqələrinin tənzimlənməsinin səmərəliliyi makroiqtisadi və həyat keyfiyyəti göstəriciləri ilə qiymətləndirilə bilər. Bu baxımdan Bİ-nin inkişafına iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm tərkib hissəsi kimi baxılmalıdır. Təbii ki, iqtisadiyyata dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsində mütləq bir "*səmərəli çərçivə həddi*" vardır. İqtisadiyyata müdaxilənin bu həddən çox və ya az olması iqtisadiyyatda problemlər yarada bilir. İqtisadi hadisə və prosesləri təhlil etdikdə biznes sektorun cari vəziyyətindən asılı olaraq dövlətlərin "elastik tənzimləmə" tədbirlərinin həyata keçirilməsi daha məqsədəuyğun hesab edilir. Fikrimizcə, makro amillər və sektorlar (sahələr) üzrə tənzimləmənin səmərəliliyi Bİ-nin formalaşması üçün zəruri şərtdir.

***Müddəa:*** *Bİ-nin inkişafı İK-in keyfiyyətinin artırılması, qazanılmış biliklərin iqtisadi dəyərə çevrilməsi mühitin əlverişliliyindən, eləcə də makroamillər arasındakı əlaqənin səmərəliliyindən asılıdır.*

***Elmi yenilik:*** *İK-in formalaşdırılması, kəmiyyəti və keyfiyyəti, səmərəli istifadəsi ilə makro amillər arasında qarşılıqlı əlaqənin Bİ-da sinerji effektinə malik olmasının nəzəri aspektləri əsaslandırılmışdır.*

**Əsaslandırma.** Müasir dünyada İK-in formalaşması və keyfiyyətinə, qazanılmış biliklərin iqtisadi faydaya çevrilməsinə xüsusi əhəmiyyət verilir. Təcrübə göstərir ki, İK-in inkişafı üçün keyfiyyətli təhsil və səhiyyə xidmətləri, qazanılmış bilik və bacarıqların reallaşdırılması imkanları üçün əlverişli mühit, inam, institutlar və digər iqtisadi və qeyri-iqtisadi makro amillər arasında güclü sinerji effekti vardır. Tarixə nəzər salsaq əlverişli biznes və rəqabət mühitinin olmadığı, qapalı və avtoritar sistemlərdə İK-in istifadəsində problemlər olur. Eyni zamanda sürətli "beyin axını" baş verir. Bu baxımdan İK inkişafı, keyfiyyəti və istifadəsinin əlverişli iqtisadi mühit, azad düşüncə, liberal iqtisadiyyat, sağlam rəqabət, əmək bazarı institutlar, investisiya, innovasiya, inam və s. bu kimi makro amillərdən asılı olduğunu söyləmək olar.

İK digər kapitallardan fərqli olaraq qeyri-maddi xarakter daşıyır və yalnız məqsədyönlü istifadə olunduqda dəyərə çevrilir, maddiləşir. Çünki bu kapital hər bir fərdin özündə (bilik, bacarıq, peşə olaraq) formalaşır, digər maddi kapitallar (maliyyə, əmlak və s.) kimi başqasına verilə bilmir. Bu kapital yalnız əlverişli mühit olduğu halda iqtisadi inkişafa təkan verə bilir.

İK iqtisadi inkişafının "mərkəzi beynidir". Bu, iqtisadi inkişafın və sosial rifahın əsasını təşkil edir. İK və iqtisadi mühit bir-birini tamamlayan və gücləndirən amillərdir. Dövlətlər uzunmüddətli inkişaf strategiyalarında hər iki sahəyə balanslı və eyni dərəcədə diqqət yetirməlidir.

***Müddəa:*** *Bİ-nin inkişafı innovasiya-investisiya fəaliyyəti ilə makro amillər arasında qarşılıqlı əlaqənin tənzimlənməsinin səmərəliliyindən asılıdır.*

***Elmi yenilik:*** *İqtisadi və qeyri-iqtisadi makro amillərin tənzimlənməsi ilə innovasiya-investisiya fəaliyyətinin inkişafı arasındakı*

*qarşılıqlı əlaqənin Bİ quruculuğuna sinerji effekti nəzəri baxımdan əsaslandırılmışdır.*

***Əsaslandırma.*** İnnovasiya-investisiya fəaliyyətinə yeni məhsul və xidmətlərin yaradılmasında birbaşa və dolayısı ilə iştirak edən bütün fəaliyyətlər daxildir. Burada yeni ideyanın yaranmasında başlayaraq hazır məhsula çatdırılmasına qədər bütün mərhələlərdə iştirak edən subyektlərin fəaliyyəti nəzərdə tutulur. Başqa sözlə, innovasiya-investisiya fəaliyyəti – ideyanın məhsula çevrilməsi, inkişafı, istifadəsi və yayılması üçün ardıcıl olaraq həyata keçirilən bütün fəaliyyətlərdir.

İnnovasiya-investisiya fəaliyyətinin inkişafı və sinerji effektinin formalaşması institutlar, inam, mülkiyyət hüquqları, sağlam rəqabət, İK və əlverişli biznes mühiti kimi amillərin harmonik qarşılıqlı təsirindən asılıdır. Bu əlaqələr innovativ ideyaların həyata keçirilməsində və onların iqtisadi dəyərə çevrilməsində həlledici rol oynayır.

Xüsusilə, yeni ideyalara yönəldilən investisiyalar daha yüksək risklər daşıdığından, bir çox ölkələrdə bu riskləri minimuma endirmək və investisiya mühitini stimullaşdırmaq məqsədilə xüsusi tənzimləmə mexanizmləri tətbiq edilir. Vergi kreditləri, subsidiyalar, riskin sığortalanması, vergi güzəştləri və vençur kapitalı bu mexanizmlər arasında önəmli yer tutur. Vençur kapitalından daha çox yüksək riskli innovativ layihələrin maliyyələşdirilməsində istifadə olunur.

Belə bir mühitdə bilik və innovasiya əsaslı iqtisadiyyatın formalaşdırılması üçün dövlətin stimullaşdırıcı və təşviqedici mexanizmləri mühüm əhəmiyyət daşıyır. Əlverişli biznes mühitinin yaradılması, inamın artırılması və risklərin effektiv şəkildə idarə edilməsi ölkənin innovasiya potensialını artıraraq iqtisadi inkişafını sürətləndirir. Bu yanaşma, həmçinin insan kapitalının inkişafını və onun effektiv istifadəsini təmin etməklə, iqtisadiyyatın davamlı böyüməsinə töhfə verir.

Tədqiqatın **"Biliyin inkişafında bilavasitə iştirak edən sektorların fəaliyyətinin tənzimlənməsinin nəzəri əsasları"** adlı üçüncü fəsli biliyin inkişafında bilavasitə iştirak edən təhsil, elm, informasiya sektorlarının tənzimlənməsinin nəzəri aspektləri üzərində qurulmuşdur.

Bu bölmədə TEİS-ə daxil olan sektorların özünəməxsus xüsusiyyətləri, Bİ-nin inkişafında rolu, bu sahələrin fəaliyyətinə və tənzimlənməsinə təsir edən sistem daxili və sistem xarici amillər öyrənilmiş, sahələrin bir-biri ilə və makro amillərlə qarşılıqlı əlaqəsinin nəzəri aspektləri tədqiq edilmiş, mühüm nəticələr çıxarılmışdır.

***Müddəa:*** *TEİS-in iqtisadi faydalılığının və Bİ-də rolunun yüksəldilməsi üçün sistemdaxili və sistemxarici amillərin diqqətdə saxlanılması mühüm şərtdir. .*

**Elmi yenilik:** *Biliyin inkişafına təhsil, elm və informasiya sektorlarının daxili amilləri ilə müqayisədə sistemxarici makro amillərin daha güclü təsir effektinə malik olması nəzəri cəhətdən əsaslandırılmışdır.*

**Əsaslandırma.** TEİS-in səmərəliliyi biliyin istehsalı, yayılması, mənimsənilməsi, istifadəsini həyata keçirərək cəmiyyətin inkişafına və biliyin iqtisadiyyatda rolunun artmasına təkan verir. Bİ-nin formalaşmasının əsas sütunları olan TEİS-in güclü və dayanıqlı olması isə sistem daxili amillərlə yanaşı sistem xarici makro amillərdən də asılıdır.

Tədqiqat işində ənənəvi yanaşmalardan fərqli olaraq, sistem xarici amillərin (məsələn, iqtisadi sistem, əmək bazarı, texnoloji inkişaf) sistem daxili amillərlə (idarəetmə, insan kapitalı) qarşılıqlı təsiri araşdırılmışdır. Sistemin yalnız daxili parametrlərini deyil, həm də xarici mühitlə əlaqəsi tədqiq edilmişdir.

TEİS biliyin inkişafında və İK-in formalaşmasında, qazanılmış biliklərin məhsula çevrilməsində xüsusi yer tutur. Bu gün TEİS-in əhəmiyyətinin daha da artdığını ehtimal etmək olar. TEİS-in dövlət tənzimlənməsi çoxaspektlidir və özünə iqtisadi, sosial, hüquqi, siyasi və təşkilati məsələlərin birləşdirir. TEİS-in hər bir sütunu özünəməxsus tənzimləmə üsulu tələb edir. Belə ki, təhsil sisteminin tənzimlənməsinin səmərəliliyi onun əsas və son "məhsulu" olan insan kapitalının keyfiyyəti, iqtisadi artımda rolu və milli sərvətdə payı ilə ölçülür. Təhsil xidmətləri İK-in formalaşması və inkişafına iki istiqamətdə təsir göstərir. *Birincisi,* təhsil sistemi cəmiyyətdə yeni dəyər yaradan insan kapitalının "istehsalçı" kimi çıxış edir, *ikincisi* təhsil sistemi öz məhsulu olan insan kapitalının "istehlakçısı" kimi çıxış

edir. Belə ki, təhsil sistemində çalışanlar insanlar təhsilin "məhsuludur".

Əgər təhsilin idarə olunmasında və maliyyələşməsində, inklüzivliyində problem yaranarsa, əmək bazarında və biznesdə sağlam rəqabət, institusional və innovasiya mühiti əlverişli olmazsa, o zaman böyük ehtimalla təhsilin keyfiyyəti aşağı düşəcək, yaranan iqtisadi dəyərdə insan kapitalının rolu zəifləyəcəkdir.

Bİ-nin formalaşmasında əsas rol oynayan sahələrdən biri də elmi fəaliyyətdir. Əgər təhsil əsasən biliyin ötürücüsü funksiyasını daşıyırsa, elm biliyin istehsalçısı kimi çıxış edir. Bu gün cəmiyyətin tərəqqisinə və rifahına xidmət edən texniki, texnoloji, təşkilati, sosial, iqtisadi nailiyyətlər, strategiya və proqramlar elmi fəaliyyətin nəticələridir. Biliyin istehsalında həm dövlət, həm də biznes sektor fəal iştirak edir. Bu baxımdan elmi fəaliyyətin inkişafı üçün xüsusi tənzimlənmə tədbirləri həyata keçirilir. Təhsil sistemində olduğu kimi elmi fəaliyyət də daxili və xarici amillərin (iqtisadi və qeyri-iqtisadi makro amillər) təsirinə məruz qalan açıq sistemdir. Elmi fəaliyyətin əsas məqsədi yeni biliyin yaradılması, mənimsənilməsi, saxlanılması və yayılması olduğu üçün, onun nəticələri də spesifik xarakterə malikdir. Elmin maliyyələşməsinin tənzimlənməsi mexanizmi müxtəlif ölkələrdə fərqli formalarda həyata keçirilir. Eyni zamanda elmin idarə olunması və elmin nəticələrinin kommersiyalaşması da müxtəlif metodlardan istifadə edilir. Elmin maliyyələşməsinə dövlət, özəl sektor və digərləri ictimai təşkilatlar, xarici investorlar tərəfindən həyata keçirilir. Bunların da hər birinin spesifik tənzimləmə alətləri vardır.

Müasir dövrdə informasiya (məlumat, xəbər və s.) bütün sahələrin fəaliyyətinin, xüsusilə də təhsilin, elmin və innovativ inkişafın, rəqabətliliyin, iqtisadi inkişafın, ümumilikdə isə cəmiyyətin tərəqqisinin əsas xammalıdır. Alınan informasiya (məlumat, xəbər və s.) bütün dövrlərdə (hətta ən qədim dövrdə belə) insanların, şirkətlərin, dövlətlərin davranışında və qərarların qəbulunda əhəmiyyətli rol oynamış, bu gün oynamaqdadır. Xüsusilə, qloballaşan iqtisadiyyat şəraitində informasiya xammal və ya məhsul kimi, əvvəlki dövrlərdən daha böyük maddi və mənəvi əhəmiyyət daşıyır.

Tədqiqatın **"Azərbaycanda bilik iqtisadiyyatının formalaşmasına təsir edən makro amillərin təhlili və qiymətləndirməsi"**

adlı dördüncü fəslində Azərbaycanda makroiqtisadi sabitlik, biznes mühitinin de-fakto əlverişliliyi, institutlar, mülkiyyət hüquqları, qarşılıqlı inam və sair amillərlə biliyin inkişafı, İK-in formalaşması innovasiya-investisiya fəaliyyəti arasında qarşılıqlı əlaqənin sinerji effekti qiymətləndirilmişdir. Burada Bİ-nin formalaşması və inkişafına təsir edən iqtisadi və qeyri iqtisadi makro amillər, İK-in inkişaf səviyyəsi, milli sərvətdə İK-in dəyəri, İK-ə çəkilən xərclər, ilə makro amillər arasında asılılıqlar qiymətləndirilmiş, mühüm nəticələr əldə edilmişdir.

***Müddəa:*** *Makroiqtisadi sabitlik, institutların səmərəliliyi, mülkiyyət hüquqlarının qorunması, infrastrukturun mövcudluğu, biznes mühitinin de-fakto əlverişliliyi və biznesin gələcəyinə inam Bİ-nin formalaşması və inkişafının sürətləndirilməsinin zəruri şərtidir.*

**Elmi yenilik:** *Bİ formalaşması və inkişafı ilə iqtisadi və qeyri-iqtisadi makro amillər arasında güclü korrelyasiya və sinerji effekti mövcuddur və bu nəticə bütün iqtisadiyyatlar üçün keçərlidir.*

**Əsaslandırma**. Uzun müddətdir ki (bəzi illərdəki qlobal böhranları nəzərə almasaq), Azərbaycanda, makroiqtisadi və siyasi sabitlik hökm sürür. Bu ölkənin iqtisadi inkişafı üçün çox ciddi nəticədir. Ölkədə makroiqtisadi sabitliyin təmin olunması ilə yanası biznes mühitinin de-fakto və de-yure əlverişliliyinin yaxşılaşdırılması, institutların fəaliyyəti istiqamətində də islahatlar həyata keçirilir. Son illərdə biznes mühitinin de-yure əlverişliliyinin yaxşılaşdırılması istiqamətində ciddi nailiyyətlər əldə olunmuşdur. Lakin aparılan nəzəri araşdırmalar, beynəlxalq təşkilatların hesabatları, ölkələrarası müqayisələr, müşahidələr, insanların davranışları göstərir ki, biznes mühitinin de-yure əlverişliliyi ilə müqayisədə və de-fakto əlverişliliyi iqtisadi inkişaf üçün daha əhəmiyyətlidir. *"The Economist Intelligence Unit"* [4] təşkilatı real biznes mühiti hesabatında Azərbaycan 81 ölkə arasında 73-cü yerdə mövqe tutması, de-fakto biznes mühiti ilə bağlı problemlərin olduğunu göstərir.

Əvvəlki nəzəri bölmələrdə Bİ inkişafına TEİS-lə yanaşı iqtisadi-və qeyri-iqtisadi makro amillərin də ciddi sinerji effekti göstərir. Bu fikri

[4] Business Environment Rankings 2014: Which country is best to do business in? // From The Economist Intelligence Unit, – 2014, – 13 p. s.4

əsaslandırmaq üçün “Qlobal rəqabətlilik İndeksi” (QRİ), “İqtisadi Azadlıq İndeksi” (İAİ), “Qlobal Bilik İndeksi” (QBİ) indikatorlarından faydalanmaq olar. Rİ hesabatının 12 sub-indekslər arasında asılılıqların təhlili biznes mütinin bilik və bacarıqların inkişafına təsir etdiyini göstərir. (Qrafik 1).




***Qrafik 1. Makroiqtisadi sabitlik, institutlar, biznesin aktivliyi, maliyyə sisteminin bir sıra amillərlə korrelyasiya asılılığı, 141 ölkə, 2019-cu il.***
*Mənbə. Qrafik “The Global Competitiveness Index 4.0 -2019”*[5] *əsasında müəllif tərəfindən hesablanmışdır.*

Göründüyü kimi, institutlarla infrastruktur, İKT, makroiqtisadi sabitlik, bilik və bacarıqlar, məhsul bazarı, əmək bazarı, maliyyə sistemi, biznes fəallığı və innovasiya potensialı arasında çox güclü korrelyasiya əlaqəsi vardır. İnstitutlar biliyin inkişafı və biznes fəallığının yüksəlməsində əhəmiyyətli rol oynayır. Makroiqtisadi sabitlik

[5] The Global Competitiveness Index 4.0 -2019// Klaus Schwab, World Economic Forum, /Geneva: –2019, –648 p.

iqtisadi inkişaf üçün əhəmiyyətli olsa da institutlar, infrastruktur, biznes fəallığı maliyyə sistemi ilə müqayisədə daha az əhəmiyyətli hesab olunur. Maliyyə sistemi ilə institutlar, infrastruktur, biznesin aktivliyi arasında çox güclü korrelyasiya əlaqəsi vardır.

Bİ inkişafı həmçinin azadlıqların, xüsusilə də iqtisadi və yaradıcı azadlıqların, ədalətli hüquq sisteminin olmasını tələb edir. Mülkiyyət hüquqları, məhkəmələrin effektivliyi, maliyyə və biznes azadlığı, dövlətin bütövlüyü, ümumən iqtisadi fəallığı artıran tədbirlər Bİ-nin inkişafı üçün vacibdir. (Cədvəl 1)

**Cədvəl 1**

**İAİ-ni təşkil edən komponentlər arasındakı korrelyasiya matrisi, 2023-cü il, 184 ölkə üzrə**

| | | x1 | x2 | x3 | x4 | x5 | x6 | x7 | x8 | x9 | x10 | x11 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mülkiyyət hüquqları | x1 | 1 | | | | | | | | | | |
| Məhkəmələrin effektivliyi | x2 | 0,88 | 1,00 | | | | | | | | | |
| Dövlətin bütövlüyü | x3 | 0,91 | 0,88 | 1 | | | | | | | | |
| Vergi yükü | x4 | -0,35 | -0,43 | -0,40 | 1 | | | | | | | |
| Dövlət xərcləri | x5 | -0,56 | -0,54 | -0,55 | 0,36 | 1 | | | | | | |
| Fiskal sağlamlıq | x6 | -0,08 | -0,10 | -0,07 | 0,05 | 0,11 | 1 | | | | | |
| Biznesin azadlığı | x7 | 0,84 | 0,75 | 0,81 | -0,23 | -0,45 | -0,04 | 1 | | | | |
| Əməyin azadlığı | x8 | 0,57 | 0,62 | 0,57 | -0,19 | -0,29 | -0,07 | 0,54 | 1 | | | |
| Monetar azadlıq | x9 | 0,44 | 0,39 | 0,37 | -0,08 | -0,14 | 0,04 | 0,39 | 0,38 | 1 | | |
| Ticarət azadlığı | x10 | 0,59 | 0,47 | 0,52 | -0,06 | -0,37 | 0,04 | 0,68 | 0,41 | 0,24 | 1 | |
| İnvestisiya azadlığı | x11 | 0,67 | 0,58 | 0,61 | -0,22 | -0,29 | -0,03 | 0,67 | 0,37 | 0,43 | 0,50 | 1 |
| Maliyyə azadlığı | x12 | 0,67 | 0,57 | 0,63 | -0,21 | -0,28 | -0,03 | 0,73 | 0,41 | 0,39 | 0,57 | 0,80 |

*Mənbə. Qrafik "Index of Economic Freedom -2023"*[6] əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.

*Korrelyasiya asılılığının təsnifatı: Çox zəif: |r|=0.00−0.19; Zəif: |r|=0.20−0.39; Orta güclü |r|=0.40−0.59; Güclü |r|=0.60−0.79; Çox güclü. |r|=0.80−1.00*[7]

Ümumi tendensiya onu göstərir ki, Azərbaycanda 2010-2023-cü illərdə biznes mühitinin yaxşılaşdırılması, mülkiyyət hüququ, investisiya mühiti, maliyyə və ticarət mühiti istiqamətində aparılan islahatlar öz bəhrəsini verməkdədir. Belə ki, Azərbaycanda bəzi iqtisadi azadlıq göstəriciləri arasında çox güclü, bəzilərində çox zəif korrelyasiya

---

[6] https://www.heritage.org/index/pages/all-country-scores

[7] Field, A. *Discovering Statistics Using IBM SPSS Statistic, 2013*

əlaqəsi vardır. Bəzi göstəricilər üzrə asılılıq əmsalı dünya üzrə əmsaldan fərqlənir. (Cədvəl 2)

**Cədvəl 2**

**Azərbaycanda İAİ komponentləri arasında korrelyasiya əlaqəsi, 1996-2023-cü illər**

| | | *x1* | *x2* | *x3* | *x4* | *x5* | *x6* | *x7* | *x8* | *x9* | *x10* | *x11* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mülkiyyət hüquqları | *x1* | 1 | | | | | | | | | | |
| Dövlətin bütövlüyü | *x2* | 0,71 | 1 | | | | | | | | | |
| Məhkəmələrin effektivliyi | *x3* | 0,54 | 0,61 | 1 | | | | | | | | |
| Vergi yükü | *x4* | 0,29 | 0,61 | 0,19 | 1 | | | | | | | |
| Dövlət xərcləri | *x5* | -0,33 | -0,32 | -0,19 | -0,12 | 1 | | | | | | |
| Fiskal sağlamlıq | *x6* | 0,93 | 0,71 | 0,33 | 0,46 | -0,48 | 1 | | | | | |
| Biznes azadlığı | *x7* | 0,32 | 0,62 | 0,40 | 0,79 | -0,40 | 0,49 | 1 | | | | |
| Əməyin azadlığı | *x8* | -0,19 | 0,22 | 0,14 | 0,57 | -0,38 | 0,03 | 0,78 | 1 | | | |
| Monetar azadlıq | *x9* | 0,01 | 0,15 | -0,01 | 0,75 | 0,11 | 0,11 | 0,40 | 0,35 | 1 | | |
| Ticarət azadlığı | *x10* | -0,07 | 0,14 | 0,13 | 0,74 | -0,09 | 0,07 | 0,64 | 0,72 | 0,74 | 1 | |
| İnvestisiya azadlığı | *x11* | 0,47 | 0,68 | 0,24 | 0,83 | -0,47 | 0,67 | 0,84 | 0,54 | 0,44 | 0,49 | 1 |
| Maliyyə azadlığı | *x12* | 0,67 | 0,73 | 0,34 | 0,67 | -0,67 | 0,82 | 0,77 | 0,43 | 0,23 | 0,34 | 0,89 |

Mənbə. Cədvəl *"Index of Economic Freedom -2023"*[8] əsasında Excel proqramında müəllif tərəfindən hesablanaraq tərtib edilmişdir.

Təcrübə göstərir ki, Bİ-nin inkişafı üçün makroamillərin təsirinin diqqətdə saxlanılması vacibdir. Çünki, hətta bütün resurslar (kadr, maliyyə və s.) səfərbər edilsə belə əlverişli iqtisadi mühit yaradılmadan, makro amillərin təsir dərəcəsi qiymətləndirilmədən innovativ məhsul və xidmətlərin istehsalına nail olmaq mümkün deyildir. Sağlam rəqabət mühiti, biznesin gələcəyinə inam biznes sektoru biliyin inkişafına investisiya yatırmağa təşviq edə bilər.

De-fakto biznes mühiti, biznesin gələcəyinə inam, innovasiya risklərinin sığortalanması, biliyin inkişafının maliyyələşdirilməsinin stimullaşdırılması biznes sektoru biliyin inkişafına investisiya yatırmağa sövq edə bilər. Burada inamın formalaşması hökumətlərin tənzimləmə siyasətindən, biznesə müdaxilə dərəcəsindən asılıdır. De-fakto biznes mühiti və inam yeni biznes ideyalara investisiya qoyuluşunu və biliyin iqtisadi artımda rolu artıra bilir. 2 saylı qrafikdə ÜDM-in artımı (%),

8 https://www.heritage.org/index/pages/all-country-scores

investisiya artımı (%) və qarşılıqlı inam indeksi arasında asılılığın yüksək olduğunu görmək olar (Qrafik 2).




**Qrafik 2. İƏİT ölkələri üzrə orta göstəricilərin dəyişmə dinamikası**
*Mənbə. Qrafik "OECD stat"[9] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aparılan qiymətləndirmələr gösrtərir ki, İƏİT ölkələrində biznesin gələcəyinə inamla ÜDM-in və investisiyanın artımı arasında çox güclü və güclü korrelyasiya əlaqəsi vardır. Təhlillər göstərir ki, qarşılıqlı inam iqtisadi arım arasında güclü (r=0,77), qarşılıqlı inam və investisiya arasında çox güclü (r=0,90) əlaqə mövcuddur.

***Müddəa:*** *İK-in formalaşması, istifadəsi və inkişafı ümumi ictimai-siyasi mühitdən, təhsil və səhiyyə sistemindən, makro amillərin (institutlar, biznes mühiti, əmək bazarı və s.) tənzimlənməsindən və sosial müdafiə sistemindən asılıdır.*

***Elmi yenilik:*** *İlk dəfə olaraq, fərqli metodologiya (formalaşma, kapitallaşma, istifadə və səmərəlilik) əsasında 92 ölkə üzrə* ***İnsan Kapitalının İnkişafı İndeksi*** *(İKİİ) hesablanmış və reytinq sırası tərtib edilmişdir.*

**Elmi yenilik.** *Azərbaycanda İK-in inkişafına çəkilən ümumi xərclər hesablanmış, makro amillərlə İK-in formalaşması, istifadəsi və faydalılığı arasındakı sinerji effekti qiymətləndirilmişdir.*

**Əsaslandırma.** İK bilik iqtisadiyyatının "mərkəzi beyni"dir. Əgər dövrün tələblərinə uyğun keyfiyyətdə İK yoxdursa, bu halda Bİ quruculuğu yalnız sözdə ola bilər, çünki biliyi yaradan da, yayan da,

[9] Trust in government (indicator) [electron resources] / OECD, –2023. URL: https://data.oecd.org/gga/trust-in-government.htm

mənimsəyən də, tətbiq edən və iqtisadi dəyərə çevirən də məhz müəyyən bilik və bacarıqlara malik insanlardır. Bu baxımdan İK-in formalaşma, kapitallaşma, istifadə, faydalılıq üzrə qiymətləndirilməsi prosesin fasiləsizliyi baxımından əhəmiyyətlidir. Bunu nəzərə alaraq formalaşma, kapitallaşma, istifadə, faydalılıq, sağlamlıq və maliyyələşməni özünə əks etdirən 6 blokda qruplaşdırılmış 48 göstəricidən istifadə etməklə 92 ölkə üçün İKİ İndeksi hesablanmışdır. Bu göstəricilər aşağıdakı normallaşma düsturu ilə 0-1 aralığına gətirilmişdir. 1-ə yaxınlaşma İK-in inkişafını, 0-a yaxınlaşma isə zəif olmasını göstərir.

$$İKİİ = \frac{İ_{max} - İ_{fak}}{İ_{mak} - İ_{min}} \qquad (1)$$

Burada $İ_{fak}$-göstəricinin faktiki qiyməti; $İ_{max}$ -ölçməyə cəlb edilən dəyişənlər üzrə maksimum qiymət; $İ_{min}$ -ölçməyə cəlb edilən dəyişənlər üzrə minimum qiymətdir.

Hesablanmış İKİ İndeksi üzrə sıralamaya İsveçrə liderlik edir. Azərbaycan 92 ölkə arasında 58-ci yerdə qərarlaşmışdır (Qrafik 3)




**Qrafik 3. İnsan Kapitalının İnkişafı İndeksi (2020-ci ilin göstəriciləri əsasında)**

*Qeyd. İKİ İndeksi müəllif tərəfindən hesablanmışdır.*

Aparılan araşdırma və təhlillərdən bilirik ki, İK-dən səmərəli istifadə olunmasında sağlam rəqabət mühiti, rəqabətli bazarın olması tələb olunur.

Aşağıdakı qrafiklərdə İK formalaşması, istifadəsi və səmərəliliyinə təsir ehtimalı yüksək olan göstəricilər arasındakı asılılıq verilmişdir.

Göstəricilər İK İndeksi və QRİ-dən götürülmüşdür. Göründüyü kimi, sub-indeksləri ilə İK İndeksi arasında çox güclü, güclü və orta güclü asılılıq vardır. (Qrafik 4)




**Qrafik 4. İnsan kapitalı ilə qarşılıqlı əlaqədə olan makro amillər, 2019-cu il, 132 ölkə**

*Mənbə. Qrafik "World Bank"in İK İndeksi*[10] *və "World Economic Forum"un*[11] *QRİ hesabatı əsasında müəllif tərəfindən hazırlanmışdır..*

Göründüyü kimi, Azərbaycanda innovasiya potensialından başqa digər amillər üzrə trend xəttinin üstündə yer alır. Azərbaycanda İK-in formalaşması və istifadəsində, eləcə də makro amillərin tənzimlənməsində müəyyən problemlər vardır. Makro amillər üzrə mövcud

---

[10] The Human Capital Index 2020 UPDATE: Human Capital in the Time of COVID-19 // orld Bank, –The World Bank Group, Washington: 2021, 203 p

[11] Schwab, K. The Global Competitiveness Report 2019 // K.Schwab, –World Economic Forum, –Genev: – 2019. – 647 p

problemlər üzünmüddətli dövrdə ölkədə Bİ formalaşması və inkişafına ciddi maneə yarada bilir.

İK-in cəmiyyətin və iqtisadiyyatın inkişafındakı rolunu qiymətləndirmək üçün istifadə olunan mühüm göstəricilərdən biri də milli sərvətin tərkibində insan kapitalının xüsusi çəkisidir. DB-nin "*Dəyişən milli sərvətlər- 2021*"[12] hesabatında ölkələr üzrə milli sərvətin strukturunu təqdim edir. Milli sərvət istehsal edilmiş kapital, insan kapitalı, bərpa olunan təbii kapital, bərpa olunmayan təbii kapital və xalis xarici aktivlər üzrə qiymətləndirilir. Adambaşına düşən milli sərvətdə İK-in xüsusi çəkisinə görə İrlandiya (75,2%), Çin (73,2%), Polşa (71,6%) liderlik edir. Türkiyənin milli sərvətində İK-in payı 26,0% Azərbaycanda 23% təşkil edir. (Qrafik 5)




**Qrafik 5 Bir sıra ölkələrin adambaşına milli sərvətin tərkibində insan kapitalının xüsusi çəkisi, %, 2018-ci il**

*Mənbə. Qrafik "World Bank. 2021"statistik bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Ümumiyyətlə təbii sərvətlərlə zəngin olan ölkələrin əksəriyyətində, o cümlədən Azərbaycanda milli sərvətin tərkibində İK-in xüsusi çəkisi aşağıdır. Bunun əsas səbəbi ümumi sərvətin tərkibində təbii kapitalın üstün çəkiyə malik olmasıdır. Şübhəsiz ki, bu ölkələrdə İK-in zəif inkişafı da nəticəyə təsir göstərir.

---

[12] The Changing Wealth of Nations 2021: Managing Assets for the Future. // World Bank. Washington, DC: The World Bank Group, 2021, 456 p.

Statistik qiymətləndirmələr göstərir ki, Azərbaycanda adambaşına İK-in dəyəri də təhlil edilən ölkələrlə müqayisədə çox aşağıdır. 2018-ci ildə Azərbaycanda adambaşına düşən milli sərvətin dəyəri 36,3 min dollar (mövcud ABŞ dolları), adambaşına İK-nin dəyəri 8,4 min ABŞ dolları olmuşdur. Dünyada İK-in adambaşına dəyəri 101,8 min ABŞ dolları təşkil edir ki, bu da Azərbaycanın göstəricidən ≈12 dəfə çoxdur. (Qrafik 6).




**Qrafik 6. Bir sıra ölkələrdə adambaşına düşən insan kapitalının dəyəri, min ABŞ dolları**

*Mənbə. Qrafik "World Bank. 2021" əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycanda da İK-nin istifadəsinə, qazanılmış biliklərin iqtisadi faydaya çevrilməsinə iqtisadi mühitin əhəmiyyətli təsiri vardır. Burada institutlar, infrastruktur, əməkhaqqı sistemi, biznes mühiti və s. əhəmiyyətli təsir gücünə malikdir. Yeni texnika və texnologiyaların sürətli inkişafı intellektual əmək tələb edən iş yerlərinin yaranmasına səbəb olur ki, bu da yeni bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanmasını tələb edir.

İK-in formalaşması əsasən təhsil, təlim və təcrübələrlə formalaşır. Apardığımız hesablamalara görə Azərbaycanda insan potensialının kapitallaşmasına çəkilən xərclərin ümumi həcmi 2022-ci ildə 9,8 mln.

manat, adambaşına 977 manat olmuşdur. Bu xərclərin 569,8 manatı dövlət büdcəsi, 407,2 manatı əhalinin xərcləri, 1,18 manatı təşkilatların xərcləri olmuşdur.

**Cədvəl 3**

**Azərbaycanda İK-in formalaşmasına çəkilən xərclər**

| | Cəmi İK-ya çəkilən xərclər mln. AZN | Ev təsərrüfatlarının İK xərcləri, adambaşına, AZN | Büdcədən İK-ya ayrılan xərclər adambaşına, AZN | İK-ya çəkilən xərclərin ÜDM-də xüsusi çəkisi, % | Büdcə xərclərində İK xərclərinin xüsusi çəkisi,% | ET xərclərində İK xərclərinin xüsusi çəkisi,% |
|---|---|---|---|---|---|---|
| 2001 | 443,4 | 16,8 | 38,1 | 8,3 | 38,1 | 4,4 |
| 2005 | 1145 | 54 | 82,3 | 9,1 | 32,3 | 6,78 |
| 2010 | 3414,7 | 138 | 243 | 8 | 18,5 | 7,8 |
| 2015 | 6001,3 | 300 | 328,2 | 11 | 17,6 | 10,18 |
| 2016 | 6852,0 | 322,8 | 386 | 11,3 | 21 | 10,16 |
| 2017 | 6557,1 | 326,4 | 344,6 | 9,3 | 19,1 | 9,78 |
| 2018 | 7067,4 | 338,4 | 377,6 | 8,8 | 16,4 | 9,86 |
| 2019 | 7832,2 | 354 | 432,8 | 9,6 | 17,6 | 9,89 |
| 2020 | 8480,9 | 355,2 | 498,2 | 11,7 | 18,7 | 9,94 |
| 2021 | 8795,9 | 379,2 | 499,5 | 9,4 | 18,2 | 10,24 |
| 2022 | 9825,5 | 407,2 | 569,8 | 7,3 | 17,9 | 10,18 |
| **2001=1** | **22,2** | **24,2** | **14,9** | - | | |

*Qeyd. Cədvəl müəllif tərəfindən hesablanmışdır.*

2001-ci illə müqayisədə 2022-ci ildə dövlət büdcəsindən adambaşına xərclərin həcmi 14,9 dəfə, əhalinin adambaşına xərclərinin həcmi isə 24,2 dəfə artmışdır. Bu onu göstərir ki, həm dövlət, həm də əhali İK-ya investisiya qoymağa maraqlıdır. Lakin bunu müəssisə və təşkilatlarla bağlı demək doğru olmazdı. Müəssisə və təşkilatlar işçilərin ixtisasının artırılmasına və təkrar hazırlığına investisiya qoymaqda hələ ki, o qədər də maraqlı deyillər. Bunun səbəbi əvvəldə qeyd olunan makro amillər və stimullaşdırıcı mexanizmlərin zəifliyi ola bilər.

***Müddəa:*** *Azərbaycan innovativ inkişaf üçün müəyyən potensiala (İK, investisiya, infrastruktur və s.) malik olsa da, bu potensialdan istifadə səviyyəsi aşağıdır.*

***Elmi yenilik:*** *İnnovasiya-investisiya fəallığı ilə Bİ, de-fakto biznes mühiti, inam, institutların səmərəli, mülkiyyət hüquqlarının qorunması, həmçinin stimullaşdırıcı və təşviqedici mexanizmlər arasında güclü əlaqənin olması əsaslandırılmışdır.*

**Əsaslandırma.** İnnovasiya-investisiya fəaliyyəti biliyin iqtisadi inkişafda rolunun artmasının əsasında dayanır. Beynəlxalq təşkilatların hesabatlarında da innovasiya investisiya fəaliyyəti müasir dövrün əsas tendensiyaları sırasında dayanır. Ölkələrdə innovasiya fəaliyyəti ilə bağlı qiymətləndirmənin və ölkələrarası müqayisələrin aparılması üçün QİI-dən istifadə edilir. Bu indeks iki: innovasiya potensialı (giriş) və innovativ nəticələr (çıxış) blokunda qruplaşdırılır. Qeyd edək ki, Azərbaycan 2021-ci illə müqayisədə 2022-ci ildə reytinq sırasında 13 pillə, innovasiyanın yaranması blokunda 4 pillə, innovativ nəticələr blokunda isə 19 pillə geriləmişdir və bu indiki şəraitdə ölkəmiz üşün çox ciddi siqnaldır.

Tədqiqat işində QİI üzrə ölkələr innovasiya potensialı və innovativ nəticələrinə görə qruplaşdırılmışdır. İnnovasiya potensialı və innovasiya nəticələri üzrə indeks qiyməti 60,0-ün üstündə olan ölkələrin innovativ inkişafı yüksək, 30,0-60,0 arasında olanların innovativ inkişafı orta, 30,0-un altında olanların isə innovativ inkişaf səviyyəsi zəif olaraq qiymətləndirilir. (Qrafik 7)




**Qrafik 7. QİI üzrə innovasiya potensial (giriş) innovativ nəticələr (çıxış) blokları arasında xətti əlaqə**

*Mənbə. Qrafik Global İnnovation İndex Report[13] [222] əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

---

[13] Global Innovation Index-2022: What is the future of innovation-driven growth // editors: Soumitra S. Dutta, B Lanvin, L.R.León and S. Wunsch-Vincent/ – Geneva WIPO: – 2022 –262 p.

Qrafikdən göründüyü kimi, giriş və çıxış parametrləri yüksək olan yeganə ölkə İsveçrədir. Ümumilikdə ölkələrin giriş indikatorları üzrə orta göstəricisi, çıxış indikatorlarının orta göstəricisi ilə müqayisədə yüksəkdir. Əlbəttə ki, innovasiya potensialı olmadan innovativ nəticə də olmur. Giriş və çıxış parametrləri zəif olan ölkələr iqtisadi cəhətdən də çox geridə olan ölkələrdir. Azərbaycan trend xəttinin altında mövqe tutmuşdur.

Azərbaycanın giriş göstəriciləri orta, çıxış göstəriciləri isə zəif olan ölkələr qrupuna düşmüşdür. Bu onu göstərir ki, Azərbaycanda innovasiya potensialı orta səviyyədədir. Lakin bu potensialdan səmərəli istifadə olunmur. Əgər innovasiya potensialından istifadədə və makro amillər üzrə tənzimləmədə səmərəlilik artırılarsa o halda Azərbaycan giriş və çıxış parametrləri orta olan ölkələr qrupuna daxil ola bilər.

**Dissertasiyanın "Azərbaycanda təhsil, elm və informasiya sektorlarının (TEİS) mövcud vəziyyətinin təhlili və biliyin inkişafına təsirinin qiymətləndirilməsi"** beşinci fəslində təhsil xidmətlərinin mövcud vəziyyətinin təhlil edilmiş, makro amillərlə qarşılıqlı əlaqəsi qiymətləndirilmiş, Azərbaycanda təhsilin kəmiyyət və keyfiyyət parametrləri üzrə qiymətləndirilməsi aparılmışdır. Bu bölmədə elmin potensialın, İKT sektorunun mövcud vəziyyəti və inkişaf göstəriciləri ilə makro amillər arasında qarşılıqlı əlaqə qiymətləndirilmiş və mühüm nəticələr əldə edilmişdir.

***Elmi müddəa:*** *Bİ-nin formalaşması və inkişafı yalnız təhsil xidmətlərinin daxili şərtlərindən deyil, həm də təhsilə yönəldilən xərclərin səmərəli istifadəsi və sistemxarici amillərin təsirindən əhəmiyyətli dərəcədə asılıdır.*

***Elmi yenilik:*** *Təhsilin keyfiyyəti və iqtisadi faydalılığı ilə makro amillər (institutlar, biznes mühiti, inam, əmək bazarı və s.) və biliyin inkişaf arasında güclü sinerji effektinin olması əsaslandırılmışdır.*

Təhsil xidmətlərinin səmərəliliyi kəmiyyət, keyfiyyət və faydalılıq kimi giriş və çıxış parametrləri əsasında aparıla bilər. Təhsil xidmətlərinin tənzimlənməsində hər üç parametrin diqqət mərkəzində saxlanılması vacibdir.

Təhsilin maliyyələşməsi xidmətlərin keyfiyyətinə təsir göstərir. Müstəqillikdən sonrakı dövrdə ölkəmizdə təhsil xərcləri davamlı olaraq artmışdır. 2000-ci illə müqayisədə 2022-ci ildə dövlət

büdcəsindən təhsilə ayrılan vəsaitlərin həcmi 20,3 dəfə artaraq 181 mln. manatdan 3,6 milyard manata yüksəlmişdir. 2022-ci ildə dövlətin təhsil xərclərinin ÜDM-ə nisbəti 2,76% (2001-ci ildə 3,5%), büdcə xərclərinə nisbəti isə 11,5% (2001-ci ildə 23,0%) olmuşdur.

Qeyd edək ki, ev təsərrüfatlarının da təhsil xərclərində ciddi artım olmuşdur. 2001-ci illə müqayisədə 2022-ci ildə ev təsərrüfatlarının təhsilə çəkdiyi xərclərin həcmi 16 dəfə artaraq 38 mln. manatdan 644,8 mln. manata yüksəlmişdir.

Təhlillər göstərir ki, xərclərin ÜDM-də payı real vəziyyəti qiymətləndirmək üçün yetərli deyil. Odur ki, adambaşına düşən təhsil xərcləri və adambaşına ÜDM göstəricilərindən istifadə olunması qiymətləndirmə üçün daha məqbuldur. Lüksemburq adambaşına təhsil xərclərinə görə dünyada lider ölkədir. Bu ölkədə əhalinin hər nəfərinə ildə 5,8 min, İsveçdə 4,4 min, Norveçdə 4,0 min, Danimarkada 3,8 min, Estoniyada 1,5 min, Azərbaycanda 0,2 min ABŞ dolları vəsait xərclənir. Təhsil xərclərinin adambaşına düşən həcminin yüksək olması ölkələrdə iqtisadi artıma və inkişafa əhəmiyyətli təsir göstərir.

Azərbaycanda ortalama 15-20 il (təhsilin yüksək pillələri də daxil olmaqla) ərzində təqribən ildə 4000 manat olmaqla 60-70 min manat vəsait xərclənir. İnkişaf etmiş ölkələrdə bu göstərici təbii ki, bundan çox yüksəkdir. 2020-ci ildə Lüksemburqda bir təhsilalana çəkilən xərc 52 min, ABŞ-da 35,3 min, B.Britaniyada 29,7 min, Türkiyədə 9,5 min, Rusiyada 9,0 min, Yunanıstanda 4,2 min ABŞ dolları olmuşdur.

PISA 2018-də üzrə qiymətləndirmənin nəticələrinə görə Azərbaycan oxu bacarıqlarına görə 77 ölkə arasında 389 balla 68-ci yerdə, riyaziyyat bacarıqlarına görə 420 balla 55-ci yerdə, təbiət elmləri üzrə 398 balla 67-ci yerdə olmuşdur.

Təhlillər göstərir ki, peşə ixtisas təhsili və ali təhsillə iqtisadi inkişaf və mühit arasında yüksək korrelyasiya əlaqəsi vardır (Qrafik 8).




**Qrafik 8. Universitetə qədrki təhsil, texniki peşə təhsili və ali təhsillə mühit və rəqabətli iqtisadi inkişaf arasında əlaqə**

*Mənbə. Global Knowledge Index (GKI)[14] göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir*

---

[14] Global Knowledge Index: 2022. [electron resources] / United Nations Development Programme and Mohammed Bin Rashid Al Maktoum Knowledge Foundation, – 2023. –URL: https://www.knowledge4all.com/country–profile?CountryId=1007

***Elmi müddəa:*** *Azərbaycanda elmi-tədqiqat fəaliyyəti ilə biznes sektor arasında əlaqə çox zəifdir və bu biznes mühitinin de-fakto əlverişliliyindən və biznesə inamdan əhəmiyyətli dərəcədə asılıdır.*
***Elmi yenilik:*** *Elmin inkişafı ilə biznes mühitinin de-fakto əlverişliliyi, inam və digər amillər arasında güclü səbəb-nəticə əlaqəsi mövcudluğu əsaslandırılmışdır.*

Ölkələrdə elmin inkişaf səviyyəsinin qiymətləndirilməsində ən geniş istifadə olunan göstərici ETİ-yə çəkilən daxili xərclərin ÜDM-ə nisbətidir. Hesablamalara görə elmin inkişafı və elmin tədqiqatların iqtisadi faydalılığının yüksəldilməsi üçün elmə çəkilən daxili xərclərin ÜDM-ə nisbəti 2%-dən yüksək olmalıdır. Elmə çəkilən daxili xərclərin ÜDM-ə nisbətinin 1%-dən aşağı olması isə kritik hədd kimi qəbul edilir. 2021-ci ildə Azərbaycanda elmə çəkilən daxili xərclərin ÜDM-ə nisbəti 0,2% (2000-ci ildə 0,3%) olmuşdur ki, bu da kritik həddən çox aşağıdır. Keçən 23 il ərzində elmə çəkilən xərclərin həcmi artsa da xüsusi çəkisində dəyişiklik olmamışdır. ETİ-yə çəkilən büdcə xərclərinin ÜDM-ə nisbəti isə 0,2%dən 0,16%-ə düşmüşdür. Büdcədən elmə çəkilən xərclər büdcə xərclərinin 0,55%-ni təşkil (2000-ci ildə 1,2%) etmişdir (Qrafik 9).




**Qrafik 9. Azərbaycanda ETİ-nin maliyyə göstəriciləri**
*Mənbə. AR DSK-nın materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

2000-2021-ci illərdə elmə çəkilən daxili xərclərin həcmi 12,2 dəfə (15,9 mln. manatdan 194,2 mln. manata), büdcə xərclərinin həcmi 16,3 dəfə (9,3 mln. manatdan 151,8 mln. manata), qeyri-büdcə vəsaitlərinin həcmi isə 6,4 dəfə (6,6 mln. manatdan, 42,4 mln. manata) artmışdır. Bununla yanaşı 2021-ci ildə ETİ-yə çəkilən daxili xərclərdə büdcə vəsaitlərinin xüsusi çəkisi 78,2% (2000-ci ildə 58,5%, 2010-cu ildə 100%), qeyri-büdcə vəsaitlərinin xüsusi çəkisi isə 21,8% (2000-ci ildə 41,5%, 2010-cu ildə 0%) olmuşdur. Göründüyü kimi, Azərbaycanda ETİ-nin maliyyələşməsində büdcədən kənar vəsaitlərin (biznes, ali məktəb, fondlar və s.) xüsusi çəkisi aşağıdır. Halbuki dünya ölkələrinin əksəriyyətində ETİ-nin maliyyələşməsində biznes sektor üstün xüsusi çəkiyə malikdir.

Onu da qeyd edək ki, bu gün yüksək texnologiyalar bazarında liderlik edən ölkələrdə elm xərclərinin ÜDM-ə nisbəti 2%-in üstündədir. 2020-ci ildə İsraildə ETİ xərclərinin ÜDM-ə nisbəti 5,3%, Koreyada 4,8%, İsveçdə 3,49% olmuşdur. Bu göstərici Azərbaycanda 0,23%, Gürcüstanda 0,32%, Özbəkistanda 0,15%, Qazaxıstanda isə 0,13% olmuşdur. Dünya üzrə orta göstərici 1,93% təşkil edir.

Elmə çəkilən daxili xərclərin ÜDM-ə nisbəti bir çox hallarda elmin inkişaf səviyyəsini qiymətləndirmək üçün kifayət etmir. Bir tədqiqatçıya çəkilən xərclərə görə qiymətləndirilə bilər. 2020-ci ildə ABŞ-da bir tədqiqatçıya çəkilən xərc 373,8 min, Rusiyada 116,4 min, Türkiyədə 100,3 min, Litvada 56,9 min Azərbaycanda isə 13,2 min beynəlxalq dollar olmuşdur. Fikrimizcə, bir tədqiqatçıya çəkilən xərclərin həcmi ölkədə elmin inkişaf səviyyəsini qiymətləndirmək üçün daha məqbuldur.

İƏİT-in statistik məlumatlarına görə 2021-ci ildə əhalinin hər nəfərinə elm xərcləri İsraildə 2448, ABŞ-da 2426, İsveçrədə 2320, Koreyada 2312, Türkiyədə 347, Rusiyada 327, Polşada 54, Latviyada 242 Azərbaycanda 26,1 beynəlxalq dollar təşkil etmişdir. Qeyd edək ki, adambaşına elm xərcləri ilə adambaşına ÜDM arasında yüksək korrelyasiya əlaqəsi vardır.

Dünyanın inkişaf etmiş ölkələrində elmə çəkilən ümumi daxili xərclərin böyük hissəsi biznes sektorun payına düşür. Bu, Belçikada 64,3%, İrlandiyada 62,8% Almaniyada 62,6%-i İsveçdə 62,4%-, Yaponiyada 78,3%-i, Koreyada 76,6%-i, Çində 77,5%, ABŞ-da

66,3% təşkil edir. Avropanın post-sosialist və post-sovet respublikalarında elmə çəkilən daxili xərclərdə payı biznes sektorun 50%-dən aşağıdır. Azərbaycanda isə təqribən 3,3 faiz təşkil edir.

Aşağıdakı qrafikdə rəqabətli iqtisadi inkişafla elmin inkişafı arasında 4 bloklu tipoloji əlaqə modeli verilmişdir. (Qarfik 10)




***Qrafik 10. Rəqabətli iqtisadi inkişafla elmi-tədqiqat və innovasiya arasında 4B tipoloji əlaqə modeli***

*Qeyd. Qrafik GKİ əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycanda son illərdə elmin inkişafı istiqamətində bir qədər canlanma müşahidə edilməkdədir. Burada əsas problem, istər dövlət, istərsə də özəl sektor tərəfindən elmi-tədqiqat işlərinə sifarişlərin verilməməsi, elmi sferada bazar infrastrukturunun formalaşmaması, müəssisələrin innovasiya fəallığının aşağı düşməsi, vergi qanunvericiliyində stimullaşdırıcı mexanizmin olmaması və s. elmin maliyyə mənbələrinin məhdudlaşmasına gətirib çıxarmışdır.

***Müddəa:*** *Bİ-nin inkişafı bütövlükdə informasiyanın (elmi, texniki, texnoloji) toplanması, emalı, saxlanması, dili, sürəti və əlçatanlığı səviyyəsindən asılıdır.*

*Elmi yenilik:* *Bİ inkişafı ilə cəmiyyətin zəruri (elmi-texniki, texnoloji və s.) informasiyalara təmin olunması və makro amillər arasındakı sinerji effekti qiymətləndirilmişdir.*

Hazırda İKT-nin imkanlarından daha səmərəli istifadə edən ölkələr (şirkətlər, fərdlər) daha sürətlə inkişaf edirlər. Tədqiqatın nəzəri hissəsində informasiya təminatının sosial, iqtisadi, siyasi əhəmiyyəti, biznes mühiti, rəqabət qabiliyyəti və iqtisadi inkişafa təsiri ilə bağlı mülahizələrimizi irəli sürmüşdük. Bunlarla yanaşı, informasiyadan psixoloji silah kimi də istifadə olunur. Hazırda dünyada çox ciddi və əhəmiyyətli informasiya müharibəsi gedir. Onu da qeyd edək ki, İKT və ya informasiya infrastrukturu informasiyanın alınması, emalı, ötürülməsi, saxlanması üçün bir alətdir, maşındır. Bu maşının işləməsi üçün isə digər amillərin (dövlət dəstəyi mexanizmi, effektiv tənzimləmə, keyfiyyətli infrastruktur, əlverişli biznes mühiti, bilik və bacarıqların inkişaf etdirilməsi vacibdir.

İnformasiya ənənəvi yollarla da alına bilər. Lakin bu çox bahalı və zaman baxımından effektli deyil. İKT sektoru isə informasiyanın alınması, ötürülməsi və əldə edilməsini, institutlar arası

Azərbaycanda elmi, texniki, texnoloji informasiyaların (elektron resurslar) Azərbaycan dilində olmasına böyük ehtiyac vardır. İnternet üzərindən aparılan təhlillərimiz göstərdi ki, Azərbaycan dilində olan elektron resurslar (elmi araşdırmalar) hətta qonşu ölkələrlə müqayisədə azdır. Belə ki, dünyanın qlobal problemləri və elm prioritetləri istiqamətləri üzrə 20 dildə axtarış nəticəsində məlum oldu ki, Azərbaycan dilində elmi informasiya "aclığı" mövcuddur. Bu da şagirdlərin, tələbələrin müasir bilikləri əldə etmə imkanlarını məhdudlaşdırır. Bu problem biliklərə əsaslanan iqtisadiyyat quruculuğu üçün ciddi maneə sayıla bilər. Dünyada baş verən elmi, texniki, texnoloji yeniliklərin, fundamental tədqiqatların Azərbaycan dilinə tərcümə olunaraq şagirdlərin, tələbələrin ixtiyarına verilməsi ölkədə biliyin inkişafını sürətləndirə bilər.

Dissertasiya işinin **"Bilik iqtisadiyyatı quruculuğunun liberallıq və dirijistlik səviyyəsinin ölçülməsi: metodologiya və ölkələrarası müqayisəli qiymətləndirmə"** adlı altıncı fəslində biliyin, o cümlədən təhsil, elm, informasiya və innovasiya fəaliyyətinin liberallıq-dirijistlik səviyyəsi qiymətləndirilmişdir. Qiymətləndirmə ETN İqtisadiyyat

İnstitutunda yerinə yetirilən **“İqtisadiyyatın Solluğu (sağlığı) İndeksi”**nin (İS(S)İ) ideyasına əsaslanır.

Bİ-nin liberallıq-dirijistlik səviyyəsinin ölçülməsi üçün metodologiya hazırlanmış və bu metodologiya əsasında təhsil xidmətlərinin, elmi fəaliyyətin, informasiya təminatının, innovasiya fəaliyyətinə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsi 62 ölkə üzrə ölçülmüş, yekun olaraq “**Bilik İqtisadiyyatının Liberallıq-Dirijistlik İndeksi” (BİLDİ)** hesablanmışdır. BİLDİ-nin hesablanmasında elm, təhsil, informasiya təminatı, innovasiya fəaliyyətinin maliyyələşməsində, məşğulluqda və mülkiyyət növləri üzrə paylanmasında dövlətin və özəl sektorun xüsusi çəkisi göstəricilərindən istifadə olunmuşdur.

BİLDİ 4 sub-indeks[15] əsasında hesablanmışdır. Göstəricilərin normallaşdırmadında aşağıdakı düsturundan istifadə edilmişdir.

$$\dot{I}_{lib-dirj.} = \frac{(\dot{I}_{fak} - \dot{I}_{min})}{(\dot{I}_{max} - \dot{I}_{min})} \quad \textbf{(2)}$$

Burada $\dot{I}_{fak}$-göstəricinin faktiki qiyməti; $\dot{I}_{max}$ -ölçməyə cəlb edilən dəyişənlər üzrə maksimum qiymət; $\dot{I}_{min}$ -ölçməyə cəlb edilən dəyişənlər üzrə minimum qiymətdir. Bu üsullar göstəricilər “0”-“1” aralığına gətirilir. Burada “0”-a yaxınlaşma liberallıq səviyyəsinin, “1”-ə yaxınlaşma isə dirijistlik səviyyəsinin yüksək olduğunu göstərir.

Sonrakı mərhələdə 4 Sub-İndeksin ədədi ortasının tapılması yolu ilə BİLDİ hesablanmışdır.

$$B\dot{I}LD\dot{I} = \frac{(TSLD_{sub-indeksi} + EFLD_{sub-indeksi} + \dot{I}FLD_{sub-indeksi} + \dot{I}TLD_{sub-indeksi})}{4} \quad (3)$$

Alınan nəticələr əsasında tədqiqata cəlb edilən ölkələr (62 ölkə) Bİ liberallıq-dirijistlik səviyyəsinə görə qütbləşdirilmişdir. İndeks qiyməti BİLDİ üzrə indeksin orta qiymətindən yuxarı alan ölkələr dirijist, aşağı olanlar liberal qütbə düşmüşdür. Bu hesablamadan çıxan nəticələr, məntiqidir və ümumən sahələrin liberal (və ya dirijist) yönümlü olduğunu deməyə əsas verir.

---

15 Təhsil Sisteminin Liberallığı-Dirijistliyi Sub-İndeksi (TSLDİ); Elmi Fəaliyyətin Liberallığı-Dirijistliyi Sub-İndeksi (EFLDİ); İnnovasiya fəaliyyətinin Liberallığı-Dirijistliyi Sub-İndeksi (İFLDİ); İnformasiya Təminatı Sisteminin Liberallığı-Dirijistliyi Sub-İndeksi (İTSLDİ).

*Müddəa: Bİ-nin formalaşmasının sürətləndirilməsi liberal yönümlü tənzimləmə siyasətinin həyata keçirilməsi tələb edir və bu, biliyin inkişafını stimullaşdırır.*

***Elmi yenilik:** İlk dəfə olaraq, Bilik İqtisadiyyatının Liberallığı-Dirijistliyi İndeksi (BİLDİ) hesablanmış və Bİ üçün liberal yanaşmanın zəruriliyi əsaslandırılmışdır.*

**Əsaslandırma.** BİLDİ üzrə faktiki ədədi orta (0,455) nəzəri ədədi ortaya (0,500) yaxın, lakin liberal qütbə doğru kiçik də olsa kənarlaşmışdır. Bu nəticə Bİ nail olan ölkələrin liberal qütbdə yer alması, ümumən biliyin inkişafının liberal sistemdə daha effektli olduğunu deməyə əsas verir. Belə ki, liberal qütbdə yer alan ölkələr biliyin inkişaf etdiyi, dirijist qütbdə isə əsasən biliyin iqtisadiyyatda rolunun zəif olduğu ölkələrdir. (Qrafik 11)




***Qrafik 11. BİLD İndeksi üzrə ölkələrin qruplaəşması** (60 ölkə)*

*Qeyd. Qrafik müəllif hesablamaları əsasında tərtib edilmişdir.*

Azərbaycan BİLDİ üzrə 6-cı ən dirijist ölkə olmuşdur. Azərbaycanın indeks qiyməti 0,628 olmaqla faktiki ədədi ortadan dirijistliyə tərəf 0,173 bənd kənarlaşmışdır. Əldə olunan nəticələrə əsaslanaraq deyə bilərik ki, Azərbaycanda elm, innovasiya və informasiya təminatı sisteminin liberallaşmasına ehtiyac vardır.

***Elmi müddəa.*** *Təhsil sisteminin, xüsusilə universitetə qədərki təhsilin dirijist, universitet təhsilinin isə liberal tənzimləməyə əsaslanması mühüm şərtdir.*

***Elmi yenilik.*** *İlk dəfə olaraq, TSLD indeksi hesablanmış, ümumən təhsil sisteminin dirijist olmasının əhəmiyyəti əsaslandırılmışdır.*

**Əsaslandırma.** TSLDİ-nin hesablanmasında təhsilin bütün pillələri üzrə dövlət xərclərinin ümumi xərclərdə xüsusi çəkisi, təhsil alanların ümumi sayında dövlət sektorunun xüsusi çəkisi göstəricilərindən istifadə olunmuşdur. (Qrafik 12*)*.




**Qrafik 12. TSLD Sub-indeksi üzrə ölkələrin qruplaşması (60 ölkə)**
Mənbə: *World Development Indicators* - əsasında hesablanmışdır.

Azərbaycan 0,828 indeks qiyməti ilə faktiki ədədi orta göstəricisinə, yəni nisbi mərkəzə yaxın yerdə mövqe tutmuşdur. Azərbaycanda təhsil sisteminə dövlətin müdaxiləsi demək olar ki, bütün post-sovet və post-sosialist ölkələrinə nisbətən daha liberaldır. Nəzəri ədədi ortadan 0,328 bənd, faktiki ədədi ortadan isə 0,013 bənd dirijist qütbə kənarlaşmışdır.

Təhsilin əhatəliliyi və icbariliyi onun dirijistlik yükünü artırır. Eyni zamanda təhsilin əlyetərliyinin təmin olunması dövlətlərin gələcək inkişafı üçün strateji addım hesab edilir.

***Elmi müddəa.*** *Elmi fəaliyyətin liberalıq yükünün yüksək, təşviqedici mexanizmlərin elastik olması biliyin inkişafı üçün mühüm şərtdir.*

***Elmi yenilik.*** *İlk dəfə olaraq, EFLDİ hesablanmış, elmin inkişafı üçün liberal yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.*

***Əsaslandırma.*** Elmin tənzimlənməsi səviyyəsini ölçmək üçün özəl sektorda fəaliyyət göstərən tədqiqat müəssisələrinin ümumi elmi-tədqiqat müəssisələrində xüsusi çəkisi, elmə çəkilən xərclərdə özəl sektorun xüsusi çəkisi, alınan patentlərin ümumi sayında özəl sektorun xüsusi çəkisi göstəricilərindən istifadə olunmuşdur.

Qrafikdən göründüyü kimi, ölkələrin çoxu liberal qütbə düşmüşdür. Bu nəticə bizə onu deməyə əsas verir ki, ümumilikdə elm sisteminin liberalyönlü olması elmin inkişafı, dolayısı ilə Bİ quruculuğu üçün əhəmiyyətlidir (Qrafik 13).

Azərbaycan bu sub-indeksdə 0,485 qiymətilə dirijist qütbdə yer almışdır. Azərbaycanın aldığı qiymət faktiki ədədi ortadan 0.200 bənd dirijist qütbə, nəzəri ədədi ortadan isə 0,015 bənd sağa düşür. Bu, Azərbaycanda elm sisteminin liberallaşmasına ehtiyac olduğunu göstərir.




**Qrafik 13. EFLD Sub- indeksi** (62 ölkə)

*Mənbə: UNESCO [416] və OECD [255] əsasında hesablanmışdır.*

*Qeyd: * – 2014-cü ilin məlumatları əsasında (UNESCO-nun statistik bazası).*

***Elmi müddəa.*** *İnnovasiya fəaliyyətinin səmərəli olması üçün MİS-in elementlərinin əsasən liberal-təşviqedici üsullarla tənzimlənməsi mühüm şərtdir.*

***Elmi yenilik.*** *İlk dəfə olaraq, İFLD indeksi hesablanmış, innovasiya fəaliyyətinin tənzimlənməsinə liberal elastik yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.*

***Əsaslandırma.*** İndeksin hesablanmasında QİI-nin alt-göstəricilərindən (tətbiq edilən güzəştlər, innovasiya sahibkarlığı, özəl sektorun innovasiya xərcləri, innovasiya məhsulunda özəl sektorun payı) istifadə edilmişdir.

Alınan nəticədən göründüyü kimi, İFLD sub-indeksində də ölkələrin çoxu liberal qütbdə cəmləşmişdir. Faktiki ədədi ortanın nəzəri

ədədi ortadan liberal qütbə doğru kənarlaşması 0,207 bənd olmuşdur.(Qrafik 14)




**Qrafik 14. İFLD Sub-indeksi (60 ölkə )**

Mənbə: *Cornell University, INSEAD, and WIPO (2015) əsasında hesablanmışdır.*

Nəticə onu deməyə əsas verir ki, innovasiya fəaliyyətinin inkişaf etdirilməsi üçün bu fəaliyyətin liberal yönümlü olması zəruri şərtdir. Azərbaycan, indeksin 0,630 qiyməti ilə dirijist qütbdə yer alır. Liberal milli innovasiya sisteminə malik olan ölkələr – əsasən inkişaf etmiş dövlətlərdir və bu amil həmin ölkələrdə Bİ quruculuğu üçün həllediciidir.

***Elmi müddəa.*** *İnformasiya təminatının tənzimlənməsinin liberal-təşviqedici əsaslı olması informasiya məhsulunun əlyetərliyi üçün mühüm şərtdir.*

***Elmi yenilik.*** *İlk dəfə olaraq, İTLDİ hesablanmış,* ***e****lmi, texniki, texnoloji informasiyaların əlyetərliyinin liberallıq sistemdə daha əlyetər olması əsaslandırılmışdır.*

**Əsaslandırma.** İTLDİ-nin hesablanmasında *QŞİ*[16]-nin alt göstəricilərindən (informasiyanın əlyetərliyi, informasiya məkanına çıxış imkanları, internet tarifləri göstəriciləri informasiya təminatı sistemində özəl sektorun payı) istifadə olunmuşdur.

İTLDİ sub-indeksində də faktiki ədədi orta (0,340), nəzəri ədədi ortadan (0,500) liberal qütbə tərəf "sürüşmüşdür". (Bax. Qrafik 15.) Həm tədqiqatın nəticələri, həm də məntiq göstərir ki, ümumən informasiya təminatı sisteminin liberal, əlyetər olması biliyin inkişafı üçün vacibdir. Qrafikdən göründüyü kimi, faktiki ədədi ortanın liberal və dirijist qütbünə düşən ölkələrin sayı təxminən bərabərdir.




**Qrafik 15. İTLD Sub- indeksi** (61 ölkə)

Mənbə: "*Global Information Technology Report*"[17] əsasında müəllif tərəfindən hesablanmışdır.

---

[16] Qlobal Şəbəkə İndeksi

[17] Bilbao-Osorio, B. The Global ınformation technology report-2013: Growth and jobs in a hyperconnected world // B.Bilbao-Osorio, S.Dutta, B.Lanvin, World Economic Forum and INSEAD, Geneva – 2013. –383 p.

Azərbaycan 0,428 indeks qiyməti ilə faktiki ədədi ortanın dirijist qütbündə yer almaqla 17-ci ən dirijist ölkə olmuşdur. Azərbaycanın aldığı qiymət nəzəri ədədi ortadan kiçik, faktiki ədədi ortadan böyük olmuşdur. Tədqiqat göstərir ki, dirijist iqtisadi modellə müqayisədə liberal iqtisadi modelin biliklərə əsaslanan iqtisadiyyat quruculuğuna pozitiv təsir imkanları daha böyükdür. İqtisadi sisteminin liberal olması Bİ-nin inkişafına əsaslı zəmin yaradır.

**"Azərbaycanda bilik iqtisadiyyatının formalaşmasına və inkişafına markoamillərin təsirinin yaxşılaşdırılması istiqamətləri"** adlı 7-ci fəsildə Bİ-ni hərəkətə gətirən amillərin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi mexanizmi, makro amillərin və TEİS-in, İK-in, innovasiya-investisiya fəaliyyətinin tənzimlənməsinə liberal-dirijist yanaşmaların sinerji effektinin qarşılıqlı əlaqələri sxematik olaraq verilmişdir. Bİ-nin tənzimlənməsi istiqamətləri verilmişdir.

***Elmi müddəa.*** *İqtisadi və qeyri iqtisadi makro amillərlə, İK-in keyfiyyəti, TEİS, innovasiya-investisiya fəaliyyəti bir-biri ilə effektiv qarşılıqlı əlaqədə olduğu halda Bİ "mühərrikinin" faydalı iş əmsalı yüksəlir. Burada, "Mühərriki hərəkətə gətirən" elementlərin dirijist, "hərəkəti sürətləndirən" elementlərin liberal tənzimləməyə əsaslanması şərtdir..*

**Elmi yenilik:** *İlk dəfə olaraq, Bİ "mühərrikinin" faydalı iş əmsalının yüksəldilməsi üçün dirijist və liberal tənzimləmənin balanslı kombinasiyasının modeli verilmiş, "tələb təzyiqi" ilə "biliyin təzyiqi" arasındakı əlaqənin, eləcə də formalaşma prosesində dirijist yanaşmanın, inkişaf prosesində liberal yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır.*

Təhsil sistemi insan kapitalının inkişafına, insan kapitalı biliyin inkişafına təsir edir. Eyni zamanda, dirijist və liberal tənzimləmə mexanizmləri, bu elementlərin fəaliyyətinin səmərəliliyinə təsir edir. Burada iki əsas tənzimləyici yanaşma - dirijist və liberal yanaşma verilmişdir. Ümumən burada çıxan nəticə odur ki, formalaşma prosesində dirijist yanaşma, inkişaf prosesində liberal yanaşmaya ehtiyac vardır. (Şəkil 2)




**Şəkil 2. Bİ formalaşdıran sahə və makro amillərin qarşılıqlı fəaliyyət mexanizmi**

Qeyd: Sxem müəllif tərəfindən tərtib edilib.

Bİ-nin "mühərriki" yuxarıda sadalanan elementlərin və tənzimləyici mexanizmlərin effektiv qarşılıqlı əlaqəsidir. Bu əlaqə, biliklərin yaradılması, yayılması və tətbiqi proseslərini sürətləndirərək, iqtisadi artımı təmin edir.

**Dissertasiyanın "Azərbaycanda biliyin inkişafının əsas iştirakçılarının fəaliyyətinin tənzimlənməsi istiqamətləri"** Təhsil xidmətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri, elmin inkişafı və tədqiqatların nəticələrinin kommersiyalaşması yolları cəmiyyətin informasiya təminatının yaxşılaşdırılması istiqamətləri verilmişdir.

# *NƏTİCƏ*

***Nəzəri və təcrübi nəticələr***

1. Cəmiyyətin bir inkişaf mərhələsindən digərinə keçməsi, bütün inqilabi dəyişikliklər, bu mərhələlər arasındakı zamanın qısalması məhz biliyin inkişafı nəticəsində mümkün olmuşdur. Xüsusilə, keçən əsrin ortalarından etibarən bilik, rəqabətqabiliyyətli iqtisadi inkişafın, məşğulluğun və sosial rifahın yaxşılaşdırılmasının ən mühüm amillərindən birinə çevrilmişdir.
2. Dünyagörüşü, idrak və biliklər təkcə bir fərdin təcrübəsi və dünyaya münasibəti ilə məhdudlaşmır. Mövcud biliklər insanlığın və cəmiyyətin tarixi inkişaf yolunda topladığı, ölçülməsi qeyri-mümkün olan qiymətli bir resursdur. Biliyi digər istehsal amillərindən fərqləndirən əsas xüsusiyyət, istifadə edildikcə artması və daha çox səmərə verməsidir. İstifadə olunmadıqda isə bilik, dəyəri hesablanması mümkün olmayan bir "xammal" bazasına çevrilir. Bu "xammalın keyfiyyəti" insanların idrak səviyyəsindən və dünyagörüşündən asılı olaraq dəyişir, yenilənir və fərqli sosial-iqtisadi nəticələr verir.
3. Maddi istehsaldan fərqli olaraq, bilik istehsalına çəkilən xərclərin miqdarını dəqiq müəyyən etmək çətindir və onu ictimai zəruri əmək məhsulu kimi ölçmək mümkün deyil. Yeni bilik - bir biliyi başqası ilə əvəz etmək mümkün olmayan unikal dəyərdir.
4. Post-sənaye cəmiyyəti ilə bilikli cəmiyyəti bir-birindən fərqləndirən müəyyən xüsusiyyətlər mövcuddur. Postsənaye cəmiyyəti, əsasən, xidmət sektorunun üstün xüsusi çəkiyə malik olması, bilikli cəmiyyət isə bütün sahələrdə və iqtisadiyyatda biliyin üstünlüyü ilə xarakterizə olunur.
5. Bİ-nin formalaşması və inkişafı bir sıra iqtisadi və qeyri-iqtisadi amillərin sinerji effektindən asılıdır. Burada tənzimləmənin səmərəliliyi, makro amillərin müxtəlif sahələrin fəaliyyətinə təsiri, hökumət və biznes arasındakı inam, mülkiyyət hüququnun qorunması, institutların möhkəmliyi, qanunvericilik bazası və normativ hüquqi sənədlərin keyfiyyəti mühüm rol oynayır.
6. İK insan potensialına qoyulan investisiyalar vasitəsilə formalaşır. Bu investisiyalar insan kapitalının təkrar istehsalına, bilik

və təcrübənin artırılmasına yönəldilir. Məhz İK-dən səmərəli istifadə edilməsinin nəticəsi olaraq Bİ formalaşır və inkişaf edir.

7. Təhsil, elm və informasiya təminatı Bİ-nin "mühərrikini" hərəkətə gətirən və makro amillərin təsirinə həssaslıq göstərən ən mühüm sütunlardır. Təhsil səviyyəsi aşağı olduqda, elm, innovasiya və informasiya amilləri öz əhəmiyyətini itirir.

8. Ümumi əldə olunan nəzəri nəticə ondan ibarətdir ki, Bİ-nin formalaşması prosesində dirijist yanaşmaya, inkişafı prosesində isə liberal yanaşmaya ehtiyac vardır. Bu yanaşmaların uyğun şəkildə birləşdirilməsi, həm dövlət müdaxiləsinin, həm də bazar qüvvələrinin səmərəli fəaliyyət göstərməsini təmin edə bilər.

9. Tədqiqatlar göstərir ki, biznes mühitinin de-yure əlverişliliyi ilə müqayisədə de-fakto əlverişliliyi daha əhəmiyyətlidir. De-fakto əlverişlilik biznes sektorunda gələcəyə inamı və investisiya cəlbediciliyini yüksəldir.

**Problemlərin həlli yolları (təklif və tövsiyələr)**

Bİ formalaşması və inkişafı üçün çoxşaxəli islahatların aparılmasına, dünya praktikasında yayılmış tənzimləyici alətlərdən səmərəli və məqsədyönlü istifadə olunmasına ehtiyac vardır. Hazırda "bazar-təhsil-elm-innovasiya-informasiya-bazar" zəncirinin daha güclü olması üçün, makro və sektorial tənzimləmə mexanizminin optimal çərçivəsinin qurulması vacibdir.

*Bİ-nın reallaşması üçün yaxın və uzaq perspektivdə həyata keçirilməsi zəruri olan islahatlar və tədbirlər aşağıdakılar ola bilər:*

**Təklif 1. Dünyagörüşün dəyişməsi üçün əhalinin, xüsusilə uşaqların və gənclərin ictimai düşüncə tərzini inkişaf etdirən təlim proqramları hazırlanmalı bütün təhsil pillələrində tədris olunmalıdır.**

**Əsaslandırma.** Dünyagörüşün dəyişməsi üçün dövlət strukturları və vətəndaş cəmiyyətinin birgə işi vacibdir. Bu proses tədris, təlim və maarifləndirmənin təşkilindən birbaşa asılıdır. Araşdırmalar göstərir ki, cəmiyyətdə dəyərlər sistemini formalaşması ictimai düşüncənin inkişafından asılıdır. Bu Bİ-nin formalaşmasının başlanğıc şərtidir.

**Gözlənilən nəticə**: Davranış mədəniyyətini, sosial münasibətləri, yaradıcı mühiti, elmi düşüncə, intellektual dəyərə malik açıq cəmiyyət formalaşacaq.

**Təklif 2. Bİ-nin inkişafını tənzimləyən mövcud qanunlar (Təhsil haqqında, Elm haqqında və b.), normativ-aktlar (təhsil standartları, maliyyələşmə, tədris texnologiyaları) təkmilləşdirilməli, yeni qanunlar qəbul edilməlidir.**

**Əsaslandırma:** Hazırkı normativ hüquqi baza Bİ-nin əsas sütunları olan innovasiya, texnologiya transferi, vençur maliyyələşməsi və kommersiyalaşması üzrə boşluqlara malikdir. **:** Hazırda Azərbaycanda Bİ inkişafının sürətləndirilməsinə xidmət edəcək "İnnovasiya fəaliyyəti haqqında", "Vençur fəaliyyəti haqqında", "Texnoparklar haqqında", "Kiçik innovasiya sahibkarlığı haqqında", "İnnovasiya fondu haqqında", "İnformasiya təminatı haqqında", "Texnologiya transferi haqqında", "Startapların stimullaşdırılması haqqında", "Elmi tədqiqatların kommersiyalaşdırılması haqqında" və "Ali təhsil haqqında" və s. qanunların qəbulu vacib hesab olunur.

**Gözlənilən nəticə:** Yeni qanunlar hüquqi və institusional maneələri azaldacaq, innovativ fəaliyyətin hüquqi qorunması təmin ediləcək, biliyin iqtisadi artımda rolu yüksələcək.

**Təklif 3. Aparılan islahatların makroiqtisadi və sosial təsirlərinin ölçülməsi üçün müasir texnologiyalara əsaslanan "Dövlət Tənzimlənməsinin İntellektual Monitorinqi Sistemi" (DTİMS) qurula bilər.**

**Əsaslandırma:** Ölkədə həyata keçirilən islahatların, qəbul edilən qanunların, tənzimləyici qərarların, təsdiq edilən normativ hüququ aktların makroiqtisadi və sosial təsirlərinin aylıq göstəricilər və sorğular əsasında ölçülməsi inkişafın davamlılığı baxımından əhəmiyyətlidir. Belə bir qiymətləndirmənin aparılması islahatların yönünün (liberal və ya dirijist) müəyyən edilməsi, inkişaf üçün optimal çərçivənin tapılması, sahəvi və regional səviyyədə qiymətləndirməyə imkan verə bilər. Bu sistemin qurulmasında ETN İqtisadiyyat İnstitutunun "İqtisadiyyatın Solluğu (Sağlığı) İndeksi" metodologiyası faydalı ola bilər.

**Gözlənilən nəticə**: Bu sistem dövlətin tənzimləyici siyasətlərinin real təsirlərini ölçməyə imkan verəcək, çevik siyasətlərin formalaşmasını və koordinasiyasını gücləndirəcək. DTİMS sisteminin tətbiqi nəticəsində qərarların qəbulunun çevikliyini 35-40% artıra bilər.

**Təklif 4. Stimullaşdırıcı və təşviqedici mexanizmlər DTİMS-in nəticələrinə əsaslanaraq konkret sahələr və məhsul qrupları üzrə pilot layihə formasında tətbiq olunmalıdır.**

**Əsaslandırma:** Araşdırmalar göstərir ki, adətən ümumiləşdirilmiş stimullaşdırıcı tədbirlər tətbiqi bilik və innovasiyalara əsaslanan inkişaf üçün effektiv olmur. Təklif edilən sahəvi və məhsul növləri yanaşması çərçivəsində, innovasiyanın xüsusiyyətlərindən asılı olaraq fərqli vergi güzəştləri, subsidiyalar, sosial ödəmələrin azaldılması və ya sığorta mexanizmləri üzrə tətbiq olunmalıdır. İƏİT ölkələrinin təcrübəsi göstərir ki, sahəvi və məhsul üzrə təşviq modelləri innovasiya nəticələrini 1,7 dəfəyə qədər artıra bilər.

**Gözlənilən nəticə:** Sahə və məhsul üzrə təşviq mexanizmləri bilik istehsalını və tətbiqini gücləndirəcək, innovasiya fəallığını və yerli innovasiya məhsullarının payını artıracaq.

**Təklif 5. Elmin və innovasiyaların idarə olunmasında liberal tənzimləməyə üstünlük verilməli, biznesin elmə və innovasiyalara investisiya yatırması stimullaşdırılmalıdır.**

**Əsaslandırma:** Liberal iqtisadiyyat, de-fakto əlverişli biznes mühiti və institutlar elmin və innovasiya fəaliyyətinin inkişafında əhəmiyyətli rol oynayır. Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, dövlətin elmi-tədqiqatlara və innovasiyalara birbaşa xərclərinin artırılması ilə yanaşı, özəl sektorun elmə və innovasiyalara investisiya yatırımı biliyin iqtisadi artımda rolunu artırır. Bunun üçün vergi kreditlərinin verilməsi və innovasiya riskinin sığortalanması metodu tətbiq edilir. Azərbaycan tətbiq ediləcək təşviq və güzəşt mexanizmləri konkret məhsul və xidmətlər üzrə müddətli olması məqsəduyğun hesab edilir.

**Gözlənilən nəticə.** Biznes sektorun elmə və innovativ ideyalara investisiyaları artacaq, elmi-tədqiqatların kommersiyalaşması sürətləndirəcəkdir.

**Təklif 6. Təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün təhsilin bütün pillələrində tədris texnologiyaları yenilənməli, ali məktəblərə qəbul qaydaları yenilənməlidir.**

**Əsaslandırma.** Təhsil xidmətlərinin keyfiyyəti dövlətin ciddi nəzarət mexanizminin olmasını tələb edir. Qabaqcıl ölkələrdə təhsil

sistemi dövrün standartlarına uyğunlaşdırılır, təhsilin maddi-texniki bazası gücləndirilir, tədrisin keyfiyyətin artırılması, təhsilalanların yükünün azaldılma məqsədilə müvafiq islahatları həyata keçirilir. Onlayn təhsil platformaları, rəqəmsal alətlər və virtual siniflər şagird və tələbələrin müstəqil öyrənmə bacarıqları inkişaf etdirilməlidir,

İndiki şəraitdə ali məktəblərə qəbul (dövlət sifarişli yerlər istisna olmaqla) prosesi asanlaşdırılması, universitetlərin giriş qapısının genişləndirilməsi və çıxış qapısının daraldılması biliyin və İK-in inkişafında əhəmiyyətli ola bilər. Ali məktəblərə qəbulla yanaşı, buraxılış da DİM-in nəzarətində həyata keçirilə bilər. Bu İK keyfiyyətinə müsbət təsir göstərər. Burada hərbi xidmətə çağırış yaşının mərhələli şəkildə 20-yə qaldırılması ilə 18-20 yaşda olan gənclərin ali təhsil almaq imkanlarını genişləndirər.

**Gözlənilən nəticə.** Təhsil keyfiyyəti artacaq, tələbələr daha çox praktiki bacarıqlar əldə edəcək, ali təhsilin əlçatarlığı yüksələcəkdir.

**Təklif 7. Təhsil sisteminin dövlət tənzimlənməsi liberallıq-dirijistlik dərəcəsi təhsil pillələrindən asılı olaraq qurulması məqsədəuyğundur.**

**Əsaslandırma**: Bİ-nin inkişafında təhsilin bütün pillələri əhəmiyyətli rol oynayır. Məktəbəqədər, ümumi təhsil dövlətin güclü nəzarətində olmalıdır, çünki bu təhsil pillələri icbaridir, keyfiyyəti və əlyetərliyi bütün uşaqlar üçün bünövrə rolunu oynayır. Ali təhsil və peşə təhsili isə əvvəlki pillələrlə müqayisədə liberal olmalıdır. Ali təhsilin idarəetməsində dövlət müdaxiləsinin azaldılması, dövlətin buraxılan kadrların keyfiyyətinə və əmək baxarına uyğunluğuna nəzarəti gücləndirilməlidir.

**Gözlənilən nəticə.** Təhsilin əlyetərliyi artacaq insan kapitalının keyfiyyətinin yüksələcəkdir.

**Təklif 8. Ali təhsildə universitetlərə qəbul zamanı regional yanaşmanın tətbiq edilməsi məqsədəuyğundur.**

**Əsaslandırma**: Regional yanaşma tətbiq edildikdə, regionlarda olan universitetlərin sayının artırılması, region universitetlərinə qəbulun və tədrisin təşviq edilməsi faydalı ola bilər. Bu, həmçinin regional inkişafı stimullaşdırar və ölkənin müxtəlif bölgələrində təhsil keyfiyyətinin artırılmasına səbəb ola bilər.

**Gözlənilən nəticə.** Regionların inkişafı sürətlənəcək, Bakının sosial yükü azalacaq.

**Təklif 9. İnformasiya əlçatanlığının təmin edilməsi və İKT infrastrukturunun inkişafı təmin edilməlidir.**

**Əsaslandırma:** Biliyin inkişafı üçün e-kitabxanalar, elmi mənbələrə açıq platformalar, Nobel mükafatçılarının və daha çıx istinad olunan əsərlərin Azərbaycan dilinə tərcüməsi və yüksək keyfiyyətli e-məzmun vacibdir.

**Gözlənilən nəticə:** Müasir elmi mənbələrə çıxış asanlaşacaq, akademik nəticələrdə keyfiyyət göstəriciləri yüksələcəkdir.

## Dərc olunmuş elmi işlərinin siyahısı


1. Muradov A.N. Elmi-texniki kadrların resurs təminatının mövcud vəziyyəti və yaxşılaşdırılması imkanları // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2004, №2, s. 126–133.
2. Muradov A.N., Əşrəfova R. İntellektual mülkiyyətin kommersiyalaşmasına dair // Ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun (16 sentyabr 1994-cü il) qəbul edilməsinin 10 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları: Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri. – Bakı, 2004, s. 166–168.
3. Muradov A.N. Gənclərin məşğulluq və təhsil problemlərinə dair // AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), I buraxılış. – Bakı: Elm nəşriyyatı, 2005, s. 118–127.
4. Muradov A.N. Neft gəlirlərinin insan kapitalının formalaşmasına yönəldilməsi istiqamətləri // AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), II buraxılış. – Bakı: Elm nəşriyyatı, 2005, s. 188–192.
5. Muradov A.N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, "Elm" nəşriyyatı, 2005, 324 s.
6. Muradov A.N. Həyat səviyyəsinin yaxşılaşdırılmasında təhsilin rolu // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2006, №1, s. 117–129.
7. Muradov A.N. Azərbaycanda təhsil xidmətinin mövcud vəziyyəti və onun yaxşılaşdırılması yolları // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2006, №2, s. 95–101.
8. Muradov A.N. Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatına və əhalinin həyat səviyyəsinə təsirinin qiymətləndirilməsi // Milli iqtisadiyyatın problemləri, Məqalələr toplusu, III buraxılış. – Bakı: Elm nəşriyyatı, 2006, s. 92–99.
9. Muradov A.N., Muradov Ş.M. Qloballaşma şəraitində elmin inkişafının zəruriliyini şərtləndirən amillər // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2006, №3–4, s. 3–12.
10. Muradov A.N. Elmi fəaliyyət sferasında idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətləri // AMEA İqtisadiyyat İnstitutu. Milli

iqtisadiyyatın problemləri (məqalələr toplusu), IV buraxılış. – Bakı: Elm nəşriyyatı, 2006, s. 134–141.

11. Мурадов А.Н., Гасанов П.С. Проблема бедности и некоторые показатели ее оценивания // XXI Век: Итоги и новые горизонты социальной работы (К 15-летию создания кафедры социологии и социальной работы). – Московский Государственный Университет Сервиса, Часть III, 2006, с. 130–140.

12. Muradov A.N. Elmi-tədqiqat istiqamətlərinin maliyyələşdirilməsi problemləri // "Respublikada aparılan elmi-tədqiqat işlərinin elm sahələri üzrə inkişaf tendensiyası" mövzusunda elmi-praktiki konfransın materialları. – Bakı: Elm, 2006, s. 196–199.

13. Muradov A.N. Elmi-texniki siyasətin formalaşması istiqamətləri // AMEA İqtisadiyyat İnstitutu. Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində: uğurlar, problemlər, təkliflər mövzusunda elmi-praktik konfransın materialları. – Bakı: Elm, 2006, s. 207–209.

14. Muradov A.N. İnsan kapitalının formalaşması davamlı sosial-iqtisadi inkişafın mühüm şərti kimi // AR Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti. Milli iqtisadi inkişafın Azərbaycan modeli mövzusunda beynəlxalq konfransın materialları, IV buraxılış, 12–13 may 2006, s. 209–213.

15. Muradov A.N., Əşrəfova R. İntellektual mülkiyyətin qiymətləndirilməsi // Sosial-iqtisadi inkişafın sürətləndirilməsində maliyyə nəzarətinin rolu, Beynəlxalq elmi-praktiki konfrans materialları. – Bakı, 16 sentyabr 2006, s. 100–102.

16. Muradov A.N. Bilik iqtisadiyyatı dünya təcrübəsində // Aqil Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. – Bakı, 2006, s. 114–117.

17. Muradov A.N. İnnovasiya prosesi – elmtutumlu məhsul istehsalının mühüm şərti kimi // AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), I buraxılış. – Bakı: Elm nəşriyyatı, 2007, s. 302–309.

18. Muradov A.N. İntellektual potensial, məşğulluq və həyat səviyyəsinin qarşılıqlı əlaqələrinin nəzəri aspektləri // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2007, №1, s. 62–66.

19. Muradov A.N. Əhali gəlirləri və insan potensialının inkişafına dair // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi Əsərlər, №3. – Bakı, 2007, s. 80–84.

20. Muradov A.N. Əhalinin insan kapitalına investisiya xərclərinə dair // AMEA-nın Xəbərləri. İqtisadiyyat Elmləri Seriyası. – Bakı: Elm nəşriyyatı, 2007, №3, s. 33–38.

21. Muradov A.N. Yaşayış keyfiyyətinin qiymətləndirilməsinin nəzəri aspekti // AMEA-nın Xəbərləri. İqtisadiyyat Elmləri Seriyası. – Bakı: Elm nəşriyyatı, 2007, №4, s. 46–50.

22. Muradov A.N. Cəmiyyətin intellektual inkişafı ilə əhali artımının qarşılıqlı əlaqəsi // İqtisad Elmləri: Nəzəriyyə və Praktika. Rüblük nəzəri və elmi-praktiki jurnal, №1–2. – 2007, s. 49–52.

23. Muradov A.N. Elm, təhsil, mədəniyyət və səhiyyə iqtisadiyyatı // Azərbaycan Milli Ensiklopediyası. – Bakı: Elm nəşriyyatı, 2007, s. 484–485.

24. Muradov A.N. İntellektual potensialın formalaşdırılmasında ali təhsil sisteminin rolu // AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), II buraxılış. – Bakı: Elm nəşriyyatı, 2007, s. 345–350.

25. Muradov A.N. İntellektual əmək istehsalının mühüm və hərəkətverici amili kimi: nəzəri təhlil // AMEA-nın Xəbərləri. Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat). – Bakı: Elm nəşriyyatı, 2007, №2, s. 74–79.

26. Muradov A.N. Azərbaycanda elmin maliyyələşməsi: mövcud vəziyyət və inkişaf perspektivləri // Yeni informasiya texnologiyalarının elmi-tədqiqat işlərinin təhlilinə tətbiqi, II elmi-praktik seminarın materialları. – Bakı, 30 aprel 2007, s. 184–190.

27. Muradov A.N. Azərbaycanda innovasiya siyasətinin zəruriliyini şərtləndirən amillər // Yeni informasiya texnologiyalarının elmi-tədqiqat işlərinin təhlilinə tətbiqi, II elmi-praktik seminarın materialları. – Bakı, 30 aprel 2007, s. 190–196.

28. Muradov A.N. İntellektual potensialın formalaşmasında sahibkarlıq fəaliyyətinin rolunun artırılmasına dair // Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya: İqtisadi və Beynəlxalq Münasibətlər, II Beynəlxalq Konqresin materialları. – Bakı, 02–05 may 2007, s. 857–861.

29. Мурадов А.Н. Роль и место политики заработной платы в развитии интеллектуального потенциала // Социально-экономические проблемы формирования трудовых отношений, Междунар. науч.-практ. конференция. – Омск, 26 апреля 2007, с. 124–127.

30. Muradov A.N., Ashrafova R. Innovation Policy in Azerbaijan // A New Quality of Economic Growth: Innovations, Investments, Competitiveness. – Minsk: National Academy of Sciences of Belarus, October 25–26, 2007, pp. 409–411

31. Мурадов А.Н. Роль и значение «экономика знания» в устойчивом экономическом развитии // Качество науки – качество жизни: Quality of science – quality of a life. III Международная научно-практическая конференция. – Тамбов: Тамбовполиграфиздат, 26–27 февраля 2007, с. 64–66.

32. Muradov A.N. İnnovasiya fəallığının gücləndirilməsinin intellektual potensialın formalaşmasına təsirinin nəzəri-metodoloji məsələləri // AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu), III buraxılış. – Bakı: Elm nəşriyyatı, 2008, s. 154–162.

33. Muradov A.N. Azərbaycan sənayesində texnoloji innovasiya xərcləri və onun inkişafına mane olan amillər // AMEA-nın Xəbərləri. İqtisadiyyat Elmləri Seriyası. – Bakı: Elm nəşriyyatı, 2008, №3, s. 19–24.

34. Muradov A.N. İntellektual miqrasiyanın qarşısının alınması sosial-iqtisadi təhlükəsizliyin mühüm şərti kimi // AMEA-nın Xəbərləri. İqtisadiyyat Elmləri Seriyası. – Bakı: Elm nəşriyyatı, 2008, №4, s. 23–29.

35. Muradov A.N. İntellektual potensialın formalaşmasında kiçik innovasiya müəssisələrinin rolu // AMEA İqtisadiyyat İnstitutu. Elmi Əsərlər, IV buraxılış. – Bakı: Elm nəşriyyatı, 2008, s. 367–373.

36. Мурадов А.Н. Интеллектуальный потенциал – как условие технологического развития // Социально-экономические проблемы формирования трудовых отношений, Всероссийская научно-практическая конференция. – Омск: Издательство ОмГТУ, 2008, с. 265–270.

37. Muradov A.N., Abdullayeva R.S., Həsənov P.S. və b. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2008. Kollektiv monoqrafiya.

38. Muradov A.N. Azerbaijan Demographic and Health Survey 2006, Macro International Inc. Calverton, Maryland, USA May 2008 Specialists Who Contributed to the AzDHS Final Report? 2008. 229 p.

39. Muradov A.N., Süleymanov Q.S., Qəhrəmanov V.R. Sənaye sahələrində innovasiya sahibkarlığının mövcud vəziyyətinin təhlili və onun strateji idarə edilməsi modeli // AMEA-nın Xəbərləri. İqtisadiyyat Seriyası. – Bakı: Elm nəşriyyatı, 2009, №4, s. 3–8.

40. Muradov A.N. İntellektual potensialın formalaşmasında milli innovasiya sisteminin rolu // AMEA Elmi İnnovasiyalar Mərkəzi. Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyaların rolu. III Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, 23 oktyabr 2009, s. 10–15.

41. Muradov A.N. Azərbaycanda investisiya və innovasiya fəaliyyəti: mövcud vəziyyətin qiymətləndirilməsi və inkişaf perspektivləri //

Macarıstan və Azərbaycan: mədəniyyətlərin dialoqu. IV Beynəlxalq elmi konfrans, I cild. – Bakı, 03–04 noyabr 2009, s. 87–94. (Macar dilində)

42. Мурадов А.Н. Актуальные задачи роста инновационной активности в промышленности Азербайджанской Республики // 2-я Международная научно-практическая конференция Международной академии финансовых технологий. Россия, Пятигорск: Вып. II. 2009. С. 82–92.

43. Muradov A.N. Elmin regional inkişafı intellektual potensialın formalaşmasının mühüm şərti kimi // Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda elmi-praktik konfransın materialları. – Bakı, 2009, s. 26–35.

44. Muradov A.N. Investments in knowledge as an important factor in economic development // "Dialogue of Hungarian and Azerbaijani Cultures." Proceedings of the 5th International Scientific Conference, Budapest, 22–25 Nov. 2010, pp. 53–59.

45. Muradov A.N. Azərbaycanda elmi potensialın inkişafı problemləri // İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Kənd Təsərrüfatı Nazirliyi. – Bakı, 2010, s. 53–56.

46. Muradov A.N. Qlobal iqtisadi problemlərin həllində elmi biliklərdən istifadə // Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlili və nəticələr, Milli inkişaf modelinin formalaşması problemləri mövzusunda Respublika elmi-praktik konfransının materialları. – Bakı, 2010, s. 317–319.

47. Muradov A.N. Bilik iqtisadiyyatının formalaşdırılması – rəqabət qabiliyyətliliyin təmin edilməsinin mühüm amili kimi // Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya: iqtisadiyyat və beynəlxalq münasibətlər. III Beynəlxalq konqres. – Bakı, 15–17 oktyabr 2010, s. 814–819.

48. Muradov A.N., Həsənov P.S. Qlobal maliyyə böhranı şəraitində iqtisadiyyatın innovasiya fəallığının dayanıqlılığının təmin edilməsi // Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, 04 iyun 2010, s. 293–294.

49. Muradov A.N. Biliyə investisiya qoyuluşu – innovasiyalı inkişafın mühüm şərti kimi // İnnovasiyalı inkişafın sosial-iqtisadi problemləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, 27–29 oktyabr 2010, s. 19–21.

50. Muradov A.N. Elmin maliyyə təminatında baş verən dəyişikliklərin təhlili və qiymətləndirilməsi // Kooperasiya elmi-nəzəri jurnalı. – 2011, №01(23), s. 53–66.

51. Muradov A.N. İnsan kapitalının formalaşması və təhsil islahatları // Azərbaycan regionlarının sosial–iqtisadi inkişafı: problemlər, inkişaf meylləri mövzusunda Respublika elmi-praktiki konfransının materialları. – Bakı, 2011, s. 31–35.

52. Muradov A.N. Ərzaq təhlükəsizliyinin təmin edilməsi insan inkişafının mühüm şərti kimi // AMEA İqtisadiyyat İnstitutu. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları və tezislər. – Bakı, 2011, s. 23–25.

53. Muradov A.N. Modernləşmə – innovasiya siyasətinin nəticəsi kimi // Milli iqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər mövzusunda elmi-praktik konfransın materialları, AR Prezidenti yanında İdarəçilik Akademiyası. – Bakı, 2011, s. 11–13.

54. Muradov A.N. Bilik iqtisadiyyatı, iqtisadi inkişaf və cəmiyyət // İqtisadi artımın intensiv inkişaf problemləri, Respublika elmi-praktiki konfransın materialları. – Bakı: "Kooperasiya" nəşriyyatı, 2011, s. 57–60.

55. Мурадов А.Н. Состояние и пути инновационного развития промышленного сектора экономики Азербайджана // Инвестиции: практика и опыт. – 2012, №8, с. 56–60.

56. Мурадов А.Н. Экономика знаний как формирующаяся экономическая система // Вектор Науки. Серия: Экономика и управление. – 2012, №2(9), с. 46–50.

57. Muradov A.N., Məmmədzadə E.E. Azərbaycanın innovativ inkişafına konseptual yanaşmalar: gələcəyə baxış – 2020 // Dünya iqtisadiyyatının inkişaf paradiqması: Bazar və sonrası, II Avrasiya Sosial Elmlər Forumunun materialları. – Bakı, 2012, II cild, s. 107–112.

58. Muradov A.N., Seyidəliyev D.Ə. Azərbaycanda elmin maliyyələşməsi: mövcud vəziyyət və inkişaf perspektivləri // İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri, Beynəlxalq elmi-praktiki konfransın materialları. – Sumqayıt: SDU, 2012, s. 140–142.

59. Muradov A.N., Aliyev İ.H. Türkiye ve Azerbaycanda bilim ekonomisinin oluşumu ve gelişimi // Uluslararası Katılımlı Bölgesel İşbirliği ve Kalkınma Sempozyumu. – 17–20 Ekim 2012, s. 215–233.

60. Muradov A.N., Həsənov P.S. Sahibkarlıq sektorunun innovasiya xərcləri // Regional innovasiya fəaliyyəti: reallıqlar və perspektiv, elmi-praktiki konfransın materialları. – 13–14 dekabr 2012, s. 180–183.

61. Muradov A.N. Bilik iqtisadiyyatına doğru // Milli iqtisadiyyatın inkişafının səmərəliliyinin yüksəldilməsi, beynəlxalq elmi-praktiki konfransın materialları. – 27–28 iyun 2012, s. 27–28.

62. Muradov A.N. Azərbaycanda sənaye müəssisələrinin innovasiya xərcləri: təhlil və qiymətləndirmə // İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri, beynəlxalq elmi konfransın materialları. – Sumqayıt: SDU, 2012, s. 137–140.

63. Мурадов А.Н., Алиев И.Г. Тенденция формирования экономики, основывающейся на знаниях в Азербайджане // Экономист (Ukrayna). – 2013, №5(319), с. 39–42.

64. Muradov A.N., Hüseynov R. Peculiarities of economic development on the basis of innovation and innovation potential // 2nd Annual Technology Transfer and Innovation Conference, 2013, s. 134–140.

65. Muradov A.N., Aliyev İ.H., Abdullayeva R.S. Role of the Public Health Service in Formation of Human Capital in Azerbaijan // Middle-East Journal of Scientific Research. – 2014, Vol. 21(8), s. 1213–1218.

66. Muradov A.N., Mohammadpoura S., Shamekhib E. Effect of Cultural Infrastructures on Economic Investments // Reef Resources Assessment and Management Technical Paper. – 2014, Vol. 40, s. 665–673. ISSN: 1607-7393.

67. Muradov A.N. Biliyin sosial-iqtisadi məzmunu və inkişaf konsepsiyasının nəzəri aspektləri // Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya, IV Beynəlxalq Konqresin materialları. – 02–04 may 2014, s. 691–697.

68. Muradov A.N. Azərbaycan elmi yeni inkişaf mərhələsində // Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri// Ümummilli lider H.Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş konfransın materialları. – Bakı: Biznes Universiteti, 2014, s. 258–265.

69. Muradov A.N., Abdullayeva R.S. İnnovasiya indeksi biliklərə əsaslanan iqtisadiyyatın əsas göstəricisi kimi // Davamlı inkişaf və texnoloji innovasiyalar, beynəlxalq elmi-praktik konfransın materialları, I hissə. – Bakı, 2014, s. 219–224.

70. Muradov A.N. Business Environment for Knowledge-Economy Based: Theoretical and Practical Approach // ResearchGate Online Journal. DOI: 10.13140/RG.2.2.20038.63040, 2015. 15 p.

71. Muradov A.N. İnnovasiyalı iqtisadi inkişafın vergi tənzimlənməsi // Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu, elmi-praktik konfransın materialları. – Şamaxı, 05 iyun 2015, s. 103–106.

72. Muradov A.N., Abdullayeva R.S., Quliyev C.B., Əzizov Y.S., Paşa T.Ə. Qeyri-dövlət pensiya təminatı sistemi. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2016, 163 s.(Kollektiv monoqrafiya)

73. Muradov A.N. Elmin maliyyələşməsinin stimullaşdırılması mexanizmi // Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli, beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, 13–14 iyun 2017, s. 153–166.

74. Muradov A.N. Bilik iqtisadiyyatı quruculuğu: liberal və dirijist iqtisadi modellərin imkanları. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, Elm nəşriyyatı, 2017, s. 82–115.

75. Muradov A.N. Bilik iqtisadiyyatı quruculuğunda insan kapitalının roluna dair nəzəri mülahizələr // Peşə Təhsili və İnsan Kapitalı Jurnalı. – 2018, Cild 1, №4, s. 47–52.

76. Muradov A.N. İnformasiya təminatının bilik iqtisadiyyatı quruculuğuna təsiri // Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar, Respublika elmi konfransının materialları. – Bakı, 06–07 dekabr 2019, s. 270–274.

77. Muradov A.N. Biznes mühitinin insan kapitalının inkişafına təsiri // Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri, Respublika elmi konfransının materialları. – Bakı, 25–26 aprel 2019, s. 6–9.

78. Muradov A.N., Abdullayeva R.S. Sosial sferanın iqtisadiyyatı. // Dərs vəsaiti– Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2019, 237 s.

79. Muradov A., Abdullayeva R., Guliyeva A., Mahmudov S. The State Regulation of the Health Care System: Cross-Country Comparative Analysis // Economic and Social Development. Book of Proceedings, Vol. 3/4. – 55th International Scientific Conference, Varazdin, 2020/06/18.

80. Muradov A., Abdullayeva R., Musayev A., Abbasov A., Abbasova S. Regulation of Lifelong Learning in Education and Its Economic, Social Benefits // Turkish Journal of Computer and Mathematics Education. – 2021, Vol. 12, No. 6, s. 1298–1310.

81. Muradov A.N., Abdullayeva R.S. Qarabağda innovativ iqtisadiyyat quruculuğu // Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları, I Beynəlxalq elmi-praktik konfransın materialları. – Ağdam-Bakı, 16–17 sentyabr 2021, s. 373–379.

82. Müzəffərli (İmanov) N., Muradov A.N. Azərbaycanda regional iqtisadi inkişaf və diversifikasiya 2020: İqtisadi rayonların, respublika tabeli şəhərlərin, inzibati rayonların reytinqi. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2021, 108 s.(monoqrafiya)

83. Muradov A., Mohammadpour S. Identifying, Evaluating and Analyzing Barriers and Challenges of Innovation Development in Iranian Industries (Case Study: Parts, Machinery and Automotive Industries of Tabriz) // Strategic Management in Industrial Systems. – 2021, Vol. XXI, No. 56, pp. 17–33.

84. Müzəffərli (İmanov) N., Muradov A.N. Economic Development and Diversification Ranking of Azerbaijan's Administrative Districts: Comparative Analysis // Economic Journal. – 2022, Special Issue 1, s. 52–63. (Monoqrafiya)

85. Abdullayeva R.S., Muradov A.N. Şuşada kreativ iqtisadiyyat quruculuğu // Mədəniyyətin İqtisadiyyatı: Şuşadan İnkişaf İmpulsları, beynəlxalq elmi-praktik konfransın materialları. – Şuşa: Elm və Bilik, 2022, s. 37–44.

86. Abdullayeva R.S., Muradov A.N., Həsənov P.S., Əzizzadə N.Ə. Azərbaycanda sosial sahibkarlığın inkişafı. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2022, 136 s.(Kollektiv monoqrafiya)

87. Muradov A.N., Abdullayeva R.S., Guliyeva A.B. Social Benefits of Digitalisation // In: The New Digital Era: Digitalisation, Emerging Risks and Opportunities. – 2022, pp. 31–47.

88. Muradov A.N., Jabbarlı L.A. Measuring the Level of State Intervention (Support) in Agricultural Production // Procesos de integración del conocimiento, tendencias y alternativas: Necesidad del enfoque de ciencia, tecnología y sociedad. – 2023, Vol. 2, pp. 18–26.

89. Müzəffərli (İmanov) N., Muradov A.N., Şahbazov F.H. Azərbaycan regionlarının maliyyə özünəyerətliyi. – Bakı: AR ETN İqtisadiyyat İnstitutu, 2023, 132 s. .(Kollektiv monoqrafiya)

90. Müzəffərli (İmanov) N., Muradov A.N., Qənbərov F.Ə., Zeynalov M.H., Musayev A., Əhmədov B. Post-konflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər. – Bakı: AR ETN İqtisadiyyat İnstitutu, 2023, 297 s. (Kollektiv monoqrafiya)

91. Müzəffərli (İmanov) N., Muradov A.N., Abdullayeva R.S. və b. Vətən müharibəsi iştirakçılarının məşğulluğu. – Bakı: AR ETN İqtisadiyyat İnstitutu, 2023, 124 s. (Kollektiv monoqrafiya)

92. Muradov A.N. Təhsilin inkişafının və bilik iqtisadiyyatı quruculuğunun tənzimləyici amilləri: müasir çağırışlar və mövcud imkanlar // Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar, II Beynəlxalq elmi konfransın materialları (3 cilddə), I cild. – Mingəçevir Dövlət Universiteti, 2024, s. 39–52.

93. Müzəffərli (İmanov) N., Muradov A.N., Qənbərov F.Ə. və b. Qiymətlərin dövlət tənzimlənməsi: ölkələrarası müqayisəli təhlil. Azərbaycan üçün nəticələr. // ETN İqtisadiyyat İnstitutu, Bakı: “Elm və Bilik” P.Z 184 s.



Dissertasiyanın müdafiəsi 7 may 2025-ci il tarixində, saat 11:$^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1043, Azərbaycan, Bakı şəhəri, H. Cavid prospekti, 115

Elektron poçt: info@economics.com.az

Veb-sayt: https://economics.org.az

Dissertasiya işi ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiyanın və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 07 aprel 2025-ci il tarixində müvafiq ünvanlara göndərilmişdir.

Çapa imzalanma tarixi: 04.04.2025
Kağız formatı: A5
Həcmi: 75.282 işarə
Sayı: 100 ədəd